**İqtisadi və Sosial İnkişaf Mərkəzi**
**Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF)**
**İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi**

## Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası

## İnsan kapitalının inkişafı istiqaməti üzrə

# MONİTORİNQ HESABATI

**Rəşad Həsənov**

**Bakı, dekabr 2016**

# Mündəricat


*Giriş*......3

*Əhalinin sağlamlığı və səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələr*......5

*Müasir təhsil sisteminin formalaşdırılması*......17

*Sosial müdafiə sisteminin təkmilləşdirilməsi*......26

*Gender Bərabərliyi və ailənin inkişafı*......444

*Gənclərin Potensialının və İdmanın İnkişafı*......488

*Nəticə*......500

*Tövsiyyələr*......577

*İstinadlar*......611

# Giriş

"Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası [bundan sonra-Konsepsiya] Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilib. Konsepsiya 2013-2020-ci illər üçün Azərbaycan Respublikasının sosial iqtisadi inkişafının sürətləndirilməsi məqsədi daşıyır. İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması Konsepsiyada nəzərədə tutulan 8 mühüm istiqamətlərdən biridir. İnsan kapitalının inkişafında əhalinin keyfiyyətli səhiyyə və təhsil xidmətləri ilə təmin edilməsi və müxtəlif sosial qruplar, o cümlədən aztəminatlı ailələr və yoxsul vətəndaşlar üçün bu kimi xidmətlərin əlçatanlığının artırılması prioritet hədəflər olaraq müəyyənləşdirilib.

Qeyd etmək lazımdır ki, resurs bolluğu və insan kapitalının inkişafı istiqamətində aparılan tədqiqatların nəticələri birmənalı deyil. Beləki, əksər hallarda resurs lənəti iqtisadi inkişaf üçün olduğu kimi insan kapitalının inkişafına da mənfi təsir göstərsə də, bəzi hallarda da əks təsir baş verir. Beləki, yüksək resurs gəlirləri uzunmüddətli dövrdə inkişaf etmiş insan kapitalını şərtləndirir. Bravo-Ortega və Gregorio (2008) resurs bolluğunun və asılılığının iqtisadi artıma təsirini araşdırarkən, qeyd edirlər ki, ölkənin insan kapitalının inkişaf səviyyəsi və resurs asılılığı arasında ciddi korelyasiya movcuddur [1]. Skandinaviya və Latın Amerikası təcrübələrini qarşılaşdıran müəlliflərə görə əgər ölkə kifayət qədər insan kapitalına malikdirsə, resurs lənətindən xilas ola bilər.

Yuxarıda qeyd edilənləri nəzərə alsaq qeyd edə bilərik ki, Azərbaycan iqtisadiyyatının neft asılılığının azaldılması yollarından biri də məhz insan kapitalının inkişaf etdirilməsidir. Bu məqsədlə konsepsiyada insan amili və onun inkişafı prioritetlər sırasındadır.

Konsepsiyanın "*İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması"* istiqaməti aşağıdakı kimi:

- əhalinin sağlamlığı və səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələr,
- müasir təhsil sisteminin formalaşdırılması,
- sosial müdafiə sisteminin təkmilləşdirilməsi,
- gender bərabərliyinin təmin olunması və ailənin inkişaf etdirilməsi,
- gənclərin potensialının və idmanın inkişaf etdirilməsi

[1] Bravo-Ortega and Gregorio (2008). Relative Richness of the Poor. In: Lederman D. and Maloney W.F. (eds.), Natural Resources: Neither Curse, nor Destiny. Ed by World Bank, Stanford University Press

beş əsas bölümdən ibarətdir.

Yuxarıda göstərilən hər bir bölüm ayrı-ayrılıqda monitorinq predmeti olaraq müəyyən edilib. Monitorinq zamanı hər bir bölüm üzrə müəyyənləşdirilmiş strateji hədəflərə nail olmaq məsədi ilə icra edilən fəaliyyətlər və Konsepsiyada icrası ötən dövr [2013-2016] ərzində nəzərdə tutulan lakin, həyata keçirilməsi mümkün olmayan fəaliyyətlər diqqətdə saxlanılıb. Eyni zamanda keyfiyyət monitorinqi məqsədi ilə konkret hədəflər üzrə indikatorlar müqayisə edilib.

Qeyd edək ki, monitorinq aparılan zaman açıq mənbələr hesabına cavablandırılması mümkün olmayan məqamlara aydınlıq gətirilməsi məqsədi ilə aidiyyəti üzrə dövlət qurumlarına (Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və s.) müvafiq suallardan tərtib edilmiş məktublar ünvanlanıb.

2014-cü ilin ikinci rübündən etibarən dünya bazarlarında neft qiymətlərinin kəskin azalması ölkənin makro iqtisadi göstəricilərinə mənfi təsir etməklə yanaşı insan kapitalı inkişafı üçün də yeni çağırışlar formalaşdırıb. Beləki, əhalinin gəlirlərində müşahidə edilən dəyərsizləşmə digər xidmətlərin (səhiyyə, təhsil, fiziki inkişaf və s.) əlçatanlığına mənfi təsir göstərib. Dövlət gəlirlərinin azalması isə insan kapitalına investisiya imkanlarını məhdudlaşdırır. Başqa sözlə hazırda müşahidə edilən mürəkkəb daxili və xairici faktorlar Konsepsiyanın icrasına öz təsirini göstərməkdədir.

## Əhalinin sağlamlığı və səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələr

Əhalinin sağlamlığı və səhiyyə sahəsinin maliyyə təminatının gücləndirilməsi məqsədi ilə bu sahəyə ayrılan vəsaitlərin artırılması nəzərdə tutulub. Aparılan monitorinqlər zamanı aydın olub ki, konsepsiyanın qüvvədə olduğu 2013-2015-ci illərdə Azərbaycan Respublikasının dövlət büdcəsinin ***"səhiyyə"*** bölümü üzrə xərcləri 14,4% artıb. Səhiyyə xərclərinin dövlət büdcəsinin ümumi xərclərində payı 0,5 faiz bəndi irəliləyərək 4%-ə, ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisi isə 0,2 faiz bəndi irəliləyərək 1,3%-ə yüksəlib [bax: Cədvəl 1].

**Cədvəl 1. Səhiyyə xərclərinin büdcə xərclərində və ÜDM-də xüsusi çəkisinin dinamikası, illər üzrə**

| İllər | Səhiyyə xərcləri(milyon manatla) | Səhiyyə xərclərinin cəmi büdcə xərclərində payı, % | Səhiyyə xərclərinin ÜDM-də payı, % |
|---|---|---|---|
| **2013** | 618.9 | 3.5 | 1.1 |
| **2014** | 665.3 | 3.6 | 1,1 |
| **2015** | 708.2 | 4.0 | 1.3 |
| **2016 (proqnoz)** | 830.8 | 4.49 | 1.4[2] |

**Mənbə: Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin ÜDM proqnozu nəzərə alınmaqla hazırlanıb 2016**

Müvafiq istiqamətlər üzrə 2016-cı ildə də artımlar proqnozlaşdırılıb. Beləki, ***2016-cı ilin dövlət büdcəsində*** səhiyyə təyinatlı xərclər əvvəlki illə müqayisədə 17,3% artıq nəzərdə tutulub. Beləliklə, 2016-cı il ərzində səhiyyə xərclərinin ümumi büdcə xərcləmələrində payı isə 4,49%-ə yüksələ bilər. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin 2016-cı il üçün ÜDM proqnozu nəzərə alınarsa proqnozlaşdırılan səhiyyə xərclərinin ÜDM-də xüsusi cəkisi əvvəlki illə müqayisədə 0,14 faiz bəndi çox və yaxud 1,44% təşkil edəcək.

[2] Azərbaycan Respublikası Maliyyə Nazirliyi, "Azərbaycan Respublikasının 2016-cı ilin dövlət və icmal büdcələri üzrə" layihələrinin təqdimatı, baxış: 15.06.2016
http://www.maliyye.gov.az/sites/default/files/2016_budce_teqdimati.pdf

Səhiyyə sisteminin maliyyələşdirilməsi mexanizmlərinin təkmilləşdirilməsi bu sahədə inkişafın təmin edilməsində mühüm faktorlardan biridir. Buna baxmayaraq ötən dövr ərzində maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində hər hansı addım atılmayıb. Maliyyələşdirmənin yeni tələblərə uyğunlaşdırılmasının vacib parametrlərindən biri sosial sığorta sisteminin aktvləşdirilməsidir. Uzun müddət bu sahədə passivlik müşahidə edisə də Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Əsasnaməsi təsdiq edilib ki, bu da 2007-ci ildə yaradılmasına baxmayaraq faktiki olaraq fəaliyyət göstərməyən Agentliyin aktivləşdirilməsi üçün əhəmiyyətli addım hesab edilir.

Agentliyin əsas vəzifəsi icbari tibbi sığorta sahəsində dövlət proqramlarının, strategiyaların və inkişaf konsepsiyalarının həyata kecirilməsi, tibbi xidmətin keyfiyyətinin artırlıması, bu sahədə mütəxəssislərin hazırlanması, sığorta olunanların mənafeyini qorunması, bütün mənbələrdən (dövlət büdcəsi, büdcədənkənar vəsaitləri, icbari tibbi sığorta haqları və s.) daxil olan vəsaitlərin təyinatı üzrə effektiv istifadəsini təmin etməkdir. Qeyd edək ki, 2016-cı ilin sonunda Agentlik icbari tibbi sığortanın tətbiqi ilə bağlı 2 bölgədə - Mingəçevir və Yevlaxda pilot layihələrin icrasına başlayacaq. 2017-ci ildə isə icbari tibbi sığortanın ölkə üzrə tətbiqinə başlanılması və 2018-ci il ərzində bütün rayonları əhatə etməsi nəzərdə tutulub.

Ötən dövr ərzində səhiyyə sistemində çalışanların gəlirlərinin artırılması istiqamətində də müəyyən addımlar atılıb. Beləki, Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2013-cü il tarixili sərəncamı ilə səhiyyənin dövlət sektorunda çalışanların əməkhaqqı orta hesabla 10%, 18 yanvar 2016-cı il tarixli sərəncamı ilə isə daha 10% artırılıb. Nəticədə 2012-ci illə müqayisədə 2015-ci ildə bu sahə üzrə orta aylıq əmək haqqı 16,6% artıb [204.2 manat-2015, ARDSK].

***(2012) 175,1 manat →(2013) 181,6 manat →(2014) 197,8 manat → (2015) 204,2 manat***

Bunula belə, səhiyyə sahəsində orta aylıq əmək haqqının ölkə üzrə ümumi göstəriciyə nisbətən səviyyəsində geriləmə baş verib. Beləki, 2012-ci ildə ümumi göstəricinin 44%-i səviyyəsində olan orta aylıq əmək haqqı 2015-ci ildə 43,7%-dək geriləyib. Həmçinin nəzərə alsaq ki, 2015-ci və 2016-cı illər ərzində milli valyutanın kəskin devalvasiyası ölkədə istehlak qiymətləri indeksinin (infilyasiya) ciddi şəkildə artmasına səbəb olub tibbi personalın əməkhaqqında baş verən artımlar faktiki olaraq öz əhəmiyyətini itirib. Beləki, 2012-ci ildə orta hesabla hər bir səhiyyə işçisinin əməkhaqqı 225 ABŞ dolları olduğu halda 2015-ci ildə müvafiq göstərici 199 ABŞ dolları səviyyəsinə geriləyib. 2016-cı ildə milli valyutanın orta məzənnəsinin 2015-ci illə müqayisədə

təxminən 35% gerilədiyini nəzərə aldıqda səhiyyə sahəsində çalışan heyyətin sosial rifahının daha da ağırlaşdığını qeyd edə bilərik.

Səhiyyə sisteminin maddi texniki bazasının möhkəmləndirilmsi məqsədi ilə 2013-cü il ərzində 33-ü Bakı şəhərində və 23-ü rayonlarda olmaqla cəmi 56 tibb müəssisəsində təmir yekunlaşdırılıb və bu müəssisələr istifadəyə verilib. Eyni zamanda Milli Onkoloji Mərkəz müasir tibbi texnika ilə, o cümlədən mobil diaqnostik kompleksl də təchiz edilib. Qeyd etmək lazımdır ki, 2013-cü ildə Səhiyyə Nazirliyinin 27 xidməti "Elektron hökumət" portalına qoşulub. 2014-cü il ərzində 18-i Bakı şəhərində və 48-i isə regionlarda olmaq şərti ilə cəmi 66 səhiyyə müəssisəsində təmir-tikinti işləri aparılıb. Bundan başqa Astara, İsmayıllı və Tovuz rayonlarında yeni hemodializ mərkəzi açılıb ki, nəticədə hemodializ seansları üçün növbə problemi həll edilib. 2015-ci ildə Respublika Klinik Xəstəxanasında təmir işləri yekunlaşdırılıb, Ağsu, Masallı, Biləsuvar, Qazax, Neftçala rayon mərkəzi xəstəxanalarında, Mamalıq - ginekologiya, Tibbi Bərpa İnstitutu, Respublika Uşaq Stomatoloji mərkəzində isə təmir tikinti işləri davam etdirilib. Beləliklə 2015-ci ilin sonuna Azərbaycanda tikilən, əsaslı təmir olunan və müasir avadanlıqlarla təchiz edilən səhiyyə müəssisələrinin sayı 600-ə çatdırılıb.

Səhiyyə müəssisələrinin maddi texniki bazasının gücləndirilməsi ölkə üzrə hər 10 min nəfərə xəstəxana çarpaylarının sayına da öz təsirini göstərib. Nəticədə 2012-ci ilədək davamlı olaraq azalan çarpayı sayı 2013-cü ildən başlayaraq artmağa başlayıb.

**DİAQRAM 1:** *HƏR 10 MIN NƏFƏRƏ DÜŞƏN XƏSTƏXANA ÇARPAYILARININ SAYI*




*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika komitəsi, 2016*

2013-2015-ci illər ərzində əhaliyə ambulatoriya-poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı da nəzərəçarpacaq dərəcədə artıb. Nəticədə 2015-ci ildə bu tip müəsisələrin sayı ölkə üzrə 1750 olub. Beləliklə ötən 3 il ərzində ölkədə 25 ədəd ambulator-poliklinik yardım müəsisəsi istifadəyə verilib [bax: Daiqram 2].

**DİAQRAM 2:** *ƏHALİYƏ AMBULATORİYA-POLİKLİNİKA YARDIM GÖSTƏRƏN MÜƏSİSƏLƏRİN SAYI*




| | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|
| Hər 10 min nəfərə düşən xəstəxana çarpayılarının sayı | 1725 | 1725 | 1744 | 1750 |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika komitəsi, 2016*

Ambulatoriya-poliklinika müəssisələrin sayının artması son nəticədə bu sahədə təkilif edilən xidmətin həcminə də təsir göstərib. Beləki, 2015-ci ildə ambulator yardımı və çağırış zamanı yardım göstərilmiş şəxslərin sayı 2012-ci illə müqayisədə 133 min nəfər və yaxud 9% artıq olub.

Lakin, müqayisə dövründə uşaqlara xidmət göstərən poliklinika, ambulatoriya və uşaq şöbəsi olan tibb müəsisələrinin sayında 25 ədəd və yaxud 9% azalma baş verib [250 ədəd, 2015]. Qeyd edək ki, bu dövr ərzində paralel olaraq körpə ölümlərinin sayında artım baş verib [bax: Cədvəl 2].

2012-2015-ci illər ərzində əhaliyə xidmət göstərən təcili tibbi yardım stansiyalarının sayı 4 ədəd artaraq 79 olub. Bundan başqa kənd yerlərində xidmət göstərən tibb məntəqələrinin sayı 47 ədəd artıb.

2015-ci ildə Milli Onkoloji Mərkəzdə cənubi Qafqazda ilk dəfə pozitron emission tomoqrafın quraşdırılması başa çatdırılıb.

2013-cü ildən etibarən stasionar tibb müəssisələrinin fəaliyyətinə elektron nəzarət sistemi yaradılıb və kadrların mərkəzləşdirilmiş formada işə qəbuluna başlanılıb. 2014-cü ilin sonunda isə Elektron Səhiyyə Mərkəzi istifadəyə verilib. Mərkəz vətəndaşların real vaxt ərzində öz müraciətlərini Nazirliyə çatdırması imkanının yaradılması və müraciətlərin cavablandırılması məqsədi ilə yaradılıb.

2014-cü ilin sentyabrında Avropa Regional Komitəsində 53 ölkənin və Azərbaycanın qoşulduğu "2015-2020-ci illərdə Vaksinlərə dair Avropa Tədbirlər Planı" qəbul edilib. Yoluxucu xəstəliklərin profilaktikası tədbirlərinin genişləndirilməsi və qeyd edilən istiqamətdə Avropa Tədbirlər Planının tətbiqi məqsədi ilə 01 dekabr 2015-ci il tarixində "2016-2020-ci illər üçün uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazrilər Kabinetinin Qərarı təsdiqlənib.

"Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikası Prezidenti tərəfindən 5 mart 2013-cü il tarixində təsdiq edilib. Daha sonra Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli Sərəncamı ilə "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı" təsdiqlənib [3]. Proqramın əsas məsqsədi ölkə səviyyəsində uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsi, uşaq xəstəliklərinin, anadangəlmə nöqsanların və ölüm səviyyəsinin azaldılmasıdır. Lakin, hesabat dövrü ərzində əksinə körpə və uşaq ölümü artıb [bax: Cədvəl 2, Cədvəl 3]. Beləki, 2012-ci illə müqayisədə 2015-ci ildə ümumi körpə ölümü 7.9%, hər 1000 nəfər diri doğulan körpə üçün ölüm nisbəti isə 1.9% artıb.

**Cədvəl 2: Körpə ölümü, illər üzrə**

| **Illər** | *1 yaşa qədər ölən uşaqların sayı, nəfər* | | | *Hər 1 000 nəfər diri doğulana* | | |
|---|---|---|---|---|---|---|
| | *Cəmi* | *oğlanlar* | *qızlar* | *Cəmi* | *oğlanlar* | *qızlar* |
| **2012** | 1884 | 1035 | 849 | 10,8 | 11,1 | 10,5 |
| **2013** | 1862 | 1028 | 834 | 10,8 | 11,1 | 10,5 |
| **2014** | 1655 | 976 | 679 | 10,2 | 10,9 | 9,5 |
| **2015** | 2033 | 1220 | 813 | 11,0 | 12,2 | 9,5 |

***Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika komitəsi, 2016***

və

**Cədvəl 3: Uşaq ölümü (5 yaşadək uşaqlar), illər üzrə**

| **İllər** | *5 yaşadək ölən uşaqların sayı, nəfər* | | | *Hər 1000 nəfər diri doğulana* | | |
|---|---|---|---|---|---|---|
| | *Cəmi* | *o cümlədən:* | | *Cəmi* | *o cümlədən:* | |
| | | *oğlanlar* | *qızlar* | | *oğlanlar* | *qızlar* |
| **2012** | 2247 | 1177 | 1070 | 13,0 | 13,1 | 12,9 |
| **2013** | 2234 | 1247 | 987 | 12,9 | 13,0 | 12,8 |
| **2014** | 2097 | 1232 | 865 | 12,6 | 13,5 | 11,6 |
| **2015** | 2595 | 1416 | 979 | 13,3 | 14,7 | 11,8 |

[3] Azərbaycan Respublikası Prezidentinin Rəsmi İnternet Səhifəsi, "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"təsdiq edilməsi haqqında Sərəncam, 10.12.2013 http://www.president.az/articles/10459

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika komitəsi, 2016*

Müqayisə dövründə uşaq ölümlərinin sayında ümumilkdə 15.5%, hər 1000 nəfər doğulana nisbət isə 12.2% artıb.

Qeyd edək ki, Dövlət Proqramı 2013–2017-ci illəri əhatə edir. Proqramın icrası zamanı icbari dispanseriyzasiyasını icra edən dövlət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsini, laborator müayinələr üçün diaqnostik avadanlıq, reaktivlərin təşkili, kadr potensialının gücləndirilməsi kimi tədbirlərin həyata keşirilməsidə nəzərdə tutulub. Bundan başqa "2016-2020-ci illər üçün uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 1 dekabr 2015-ci il tarixli qərarı bu sahədə əlavə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Konsepsiyanın məqsədlərinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 28 yanvar 2016-cı il tarixli qərarı ilə "2016-2020-ci illər üçün şəkərli diabet xəstəliyi üzrə Dövlət Proqramı" təsdiq edilib[4]. Dövlət Proqramın icrası zamanı şəkərli diabetin profilaktikası, bu sahədə tibbi xidmətin təkmilləşdirilməsi və keyfiyyətinin yüksəlməsi, xəstəliyin yaradacağı potensial fəsadların qarşısının alınması kimi mühüm işlərin görülməsi nəzərdə tutulub.

Talassemiya ilə mübarizənin praktiki mümkünlüyünün artırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidenti 17 oktyabr 2014-cü il tarixində "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Qanunu imzalayıb[5]. Beləliklə Azərbaycanda 2015-ci ilin iyun ayından etibarən talassemiya daşıyıcılarının nigahdan əvvəl müəyyənləşdirilməsinə başlanılıb ki, bu da gələcəkdə potensial risklərin minimuma endirilməsində mühüm faktor hesab edilir. Qeyd edək ki, qanunvericiliyə edilən dəyişiklik nigahdan əvvəl tibbi müayinəni icbari xarakterli hesab edir.

Talassemiyaya qarşı profilaktikanın gücləndirilməsi, bu sahədə maarifləndirmə işlərinin artırlması, talassemiyalı xəstələr üçün tibbi xidmətin təkmilləşdirilmsi məqsədi ilə 2015-ci ilin fevral ayının 15-də Azərbaycan Respublikası Prezidenti "Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb[6]. Dövlət

[4] Azərbaycan qəzeti, "Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı № 15", 06.02.2016 http://www.azerbaijan-news.az/index.php?mod=3&id=89629

[5] Azərbaycan Respublikası Prezidentinin Rəsmi İnternet Səhifəsi, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu", 16.12.2014 http://president.az/articles/13697

[6] Azərbaycan Respublikası Prezidentinin Rəsmi İnternet Səhifəsi, "Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 10.02.2015

Proqramı icraçı qurumlar qarşısında talassemiyanın profilaktikasının gücləndirilməsi, tibbi xidmətin keyfiyyətinin artırılması, potensial talassemiya daşıyıcılarının müəyəyn edilməsi məqsədi ilə laboratoriya müayinələrinin əhatə dairəsinin genişləndirilməsi, müasir texnologiyalar vasitəsi ilə talassemiya üzərində nəzarət sisteminin təşkili, dölün prenatal diaqnostikası kimi mühüm vəzifələr müəyyənləşdirib.

Qeyd edək ki, Azərbaycanda ilk dəfə 2014-cü ildə allogen-qohum sümük iliyi transplantasiya əməliyyatı keçirilib[7]. Ümumilikdə isə 2014-cü ildə 10, 2015- ci ildə isə 15 belə əməliyyat həyata keçirilib. Bundan başqa 2015-ci ilin oktyabrında Azərbaycanda ilk dəfə yerli həkimlər tərəfindən autotransplantasiya əməliyyatı uğurla həyata keçirilib[8].

Talassemiya xəstələrinə xidmət səviyyəsinin yüksəldilməsi və müalicələrin effektivliyinin artırlması məqsədi ilə 2015-ci ildə Respublika Talassemiya Mərkəzinin laboratoriyası yeni və müasir avadanlıqlarla avadanliqla təmin olunub.

3 mart 2016-cı il tarixində Səhiyyə Naziri “2016-2020-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı”nın icrası haqqında əmr imzalayıb. Tədbirlər Proqramı Nazirliyin tabeliyində xidmət göstərən tibb müəssisələrinin regional səviyyəsində peyvəndlərlə təmin edilmə səviyyəsinin yüksəldilməsi, peyvəndlə əhatə səviyyəsinin monitorinqinin, maarifləndirmə işinin aparılması, peyvənd təqviminə poliomielitə qarşı vaksinin əlavə edilməsi, immunizasiya ilə əhatənin genişləndirilməsi yerli səviyyədə səyyar briqadaların yaradılmasını nəzərdə tutur.

Səhiyyə Nazirinin 1 aprel 2016-cı il tarixli əmri ilə ”2016-2020-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı” nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Fəaliyyət Planı təsdiq edilib. Tədbirlər Planını vərəmlə mübarizə müəssisələrinin fəaliyyətinin Ümumdünaya Səhiyyə Təşkilatının strategiyasına uyğunlaşdırılması, vərəmli xəstələrin vahid elektron qeydiyyatının təşkili, diaqnostika səviyyəsinin yaxşılaşdırılması üçün tibb müəssisələrinin müasir avadanlıqlarla təmin edilməsi, vərəm üçün dərman preparatlarının keyfiyyətinə nəzarətin artırılması, bu sahədə mütəxəssislərin hazırlanması və s. kimi fəaliyyətlərin icrasını nəzərdə tutur.

---

http://president.az/mobile/articles/14296

[7] Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, “Respublika Talassemiya Mərkəzində “Dəyirmi masa” keçirilib”, 24.02.2016
http://sehiyye.gov.az/main/1221-respublika-talassemiya-mrkzind-dyirmi-masa-keirilib.html

[8] Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, “Respublika Talassemiya Mərkəzində “Dəyirmi masa” keçirilib”, 24.02.2016
http://sehiyye.gov.az/main/1221-respublika-talassemiya-mrkzind-dyirmi-masa-keirilib.html

2015-ci ilin sonuna qədər ölkədə 1480 hemofiliyalı xəstə qeydiyyata alınıb. Əvvəlki dövrlə müqayisədə bu xstələrin davamlı faktor preparatları tam təchiz olunur. Bundan başqa Azərbaycan Respublikasının Nazirlər Kabineti 9 yanvar 2016-cı il tarixli qərara ilə "2016-2020-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı"nın təsdiq edilib.

Onkoloji xəstəliklərlə mübarizə tədbirləri artırılıb. 2012-ci illə müqayisədə 2013-cü ildə 12 adda yeni kimya terapiya dərmanları alınaraq ümumi say 58-ə çatdırılıb. Görülən işlərin nəticəsi olaraq onkoloji xəstəliklərdən ölüm hallarının sayı 2013-cü ildə hər 100 min nəfər üçün 68,7-dən 2014-cü ildə 64-ədək azalıb. Qeyd edək ki, 2014-cü ildə "Onkoloji xəstəliklərə qarşı mübarizəyə dair 2014-2024 illər üzrə Dövlət Proqramı"nın layihəsi hazırlanaraq hökumətə təqdim edilib. Lakin, 2 ilə yaxın zamanın keçməsinə baxmayaraq proqram hələlik təsdiq edilməyib.

Onkoloji yardım göstərən tibb müəsisələrinin maddi texniki bazasının gücləndirilməsi nəticəsində ilkin xəstələrin sayı 2014-cü illə müqayisədə 2015-ci ildə 3,9% və yaxud 4 nəfər artaraq 101 olub.

26 yanvar 2016-cı ildə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə "2016-2020-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı"ı təsdiq edilib. Bu proqramın icrası zamanı xəstələrin keyfiyyətli qan və qan komponentləri ilə tam təmini, transfuzioloji yardımın keyfiyyətinin artırılmasını nəzərdə tutulur.

28 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikası Nazirlər Kabineti "2016-2020-ci illər üçün xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı"nın təsdiq edilməsi haqqında"nı təsdiq edib.

Ölkə üzrə həyata keçrilən immunoprofilaktika tədbirləri nəticəsində xüsusi profilaktika ilə idarəolunan xəstəliklərin azalması baş verib. Beləliklə 2012-ci illə müqayisədə 2013-cü ildə məxmərək, difteriya xəstəlikləri qeydə alınmayıb, epidemik parotit kimi xəstəliklər 40% azalıb.

QİCS və İİV xətsəlikləri ilə kompleks mübarizə məqsədi ilə 20 fevral 2016-cı il tarixində Azərbaycan Respublikası Nazirlər Kobineti "2016-2020-ci illər üçün İİV və QİÇS-lə mübarizə üzrə yeni Tədbirlər Proqramı"-nı təsdiq edib[9]. Tədbirlər Proqramının icrası zamanı İİV infeksiyasının yayılma areyasını azaldılması, virusun anadan körpəyə ötürülməsinin qarşısının alınması və bu virusla yaşayan insanların ömrünün uzadılmasına nail olunması nəzərdə tutulub.

---

[9] Trend xəbər agentliyi, "2016-2020-ci illər üçün İİV/QİÇS-lə mübarizə üzrə Tədbirlər Proqramı təsdiq edildi", 20.02.2016
http://az.trend.az/azerbaijan/society/2497085.html

Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2015-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya" təsdiq edilib[10]. Qeyd edək ki, Konsepsiyada bu istiqamət üzrə 2013-2020-illər üçün strategiyanın hazırlanması nəzərdə tutulsa da 2 il geçikib. Təsdiq edilən strategiya icra müddətində tütündən istifadənin 10% azaldılması, adambaşına günlük duz istehlakının 5 qramadək azaldılması, böyüklər arasında fiziki passivliyin 10%-dək azaldılması, piylənmə hallarının qarşısının alınması, şəkərli diabetin yayılmasının artım tempinin azaldılması, hipertoniya xəstələrinin sayının azaldılması, ilkin səhiyyə səviyyəsində müalicəsi üçün əsas dərman preparatları və diaqnostik texnologiyalarla əhalinin ən azı 90%-nin əhatə olunması nəzərdə tutulub.

Konsepsiyanın 7.1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2014-cü il tarixli sərəncamı ilə "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı" təsdiqlənib . Qəbul edilən Dövlət Proqramının əsas məqsədi qadın və uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətinin artırılması, sağlam həyat tərzinin inkişaf etdirilməsidir. Bu məqsədlə 2014-2020-ci illər ərzində Azərbaycanda perinatal yardımın səviyyələri üzrə tibbi xidmətin gücləndirilməsi , antenatal yardımın təkmilləşdirilməsi, sağlamlıq imkanları məhdud uşaqların erkən aşkarlanması, ana və uşaqlara üçün tibbi xidmət sahəsində kadr potensialının artırılması, diridoğulma üçün beynəlxalq meyarlarının ölkədə tətbiqi, hədəf quruplarının sağlamlığının qorunmasına nəzarətin təmin edilməsi üçün monitorinq sisteminin yaradılması və s. tədbirlərin icrası nəzərdə tutulub.

Konsepsiyada uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə Milli Fəaliyyət Planı (2014-2020-ci illər) hazırlanması nəzərdə tutulsada bu sahədə nəzərdə tutulan vəzifələrin icrası üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti "2016-2020-ci illər üçün uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın təsdiq edib.

Ölkədə doğuma nəzarət sisteminin təkmilləşdirilməsi məqsədi ilə 22 oktyabr 2013-cü il tarixində "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu təsdiqlənib . Beləliklə 2013-cü ildən etibarən qeysəriyyə kəsiyi əməliyyatlarının müvafiq dövlət qurumları ilə razılaşdırılması yolu ilə həyata keçirilməsinin tətbiqinə başlanılıb. Əks halda əməliyyatının qanunsuz aparılmasına

[10] "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 23.12.2015 http://www.e-qanun.az/framework/31727

görə təqsirli şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq cəzalandırılır.

İnkişaf konsepsiyasında nəzərdə tutulan ölkədə dərman preparatlarının əhalinin bütün sosial qrupları üçün əlçatanlığının təmin edilməsi məsədi ilə Azərbaycan Respublikası Prezidentinin 18 mart 2013-cü il tarixli fərmanı ilə "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli Fərmanına dəyişiklik edilib. Dəyişiklərə əsasən dövlət qeydiyyatına alınan dərman preparatlarının qiymətinin Azərbaycan Respublikasının Tarif Şurası tərəfindən müəyyənləşdirilməsinə başlanılıb. Beləliklə hazırda qiymətlərin yuxarı həddi Tarif Şurası tərəfindən müəyyənləşdirilir ki, bu da inhisarçı qiymətlərin tətbiq edilməsi imkanlarını məhdudlaşdırmaqla yanaşı bir çox istiqamətlərdə mövcud qiymətlərin kəskin ucuzlaşmasına səbəb olub. Baxmayaraq ki, 2015-ci il ərzində milli valyutanın kəskin devalvasiyası qiymətlərin yenidən balalaşmasını zərurətə çevirib, istənilən halda tənzimləmə əlçatanlığa müsbət təsir edən faktorlardan biri olaraq qalır. Onu da qeyd etmək lazımdır ki, dərman qiymətlərinə inzibati nəzarət mexanizminin sərtləşdirilməsi bu istiqamətdə biznes aktivliyini azaldıb, hazırda bir çox dərmanların ölkəyə idxalında passivlik müşahidə edilir və faktiki olaraq əçzaxanalarda dərmanların çeşidi və miqdarında azalma baş verib. Bu isə son nəticədə müalicə prosesində effektivliyi azalda və sonda dərman bazarında qara bazarın yaranmasına səbəb ola bilər. İlleqal dərman satışı bu sahədə nəzarət imkanlarının məhdudlaşdırmaqla vətəndaşın həyatına ciddi risklər yaradar.

Əhalinin sağlamlığının gücləndirməsi və səhiyyənin inkişafı məqsədi ilə Konsepsiya çərçivəsində müəyyən işlərin görülməsinə baxmayaraq bəzi mühüm indikatorlar üzrə mənfi dinamika müşahidə edilib. Beynəlxalq standartlara cavab verən infrastrukturun yaradılması, müasir maddi texniki avadanlıqlarların gətirilməsi belə ölkənin səhiyyə sisteminin reputasiyasını bərpa etmək üçün kifayət etməyib. Nəticədə 2012-2015-ci illəri əhatə edən müqayisə dövründə ölkəyə müalicə məqsədi ilə gələn xaricilərin sayında azalma,  müalicə üçün digər ölkələrə gedənlərin sayında isə artım baş verib [bax: Diaqram 3].

*Diaqram 3:Müalicə məqsədi ilə ölkəyə gələn*
*və ölkədən gedənlərin sayı*




| | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|
| Ölkədən gedənlər | 116,5 | 169 | 169,8 | 140 |
| Ölkəyə gələnlər | 43 | 46,2 | 46,3 | 36,5 |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika komitəsi, 2016*

Göründüyü kimi, 2012-ci illə müqayisədə 2015-ci ildə müalicə məqsədi ilə ölkədən gedənlərin sayı 20% və yaxud 23.5 min nəfər artaraq 140 min olub. Bu məqsədlə Azərbaycana gələnlərin sayında isə əksinə 15.1% və yaxud 6.5 min azalma baş verib. Nəticədə müalicə məqsədi ilə ölkəyə gələn və ölkədən gedənlər arasında fərq 73.5 min nəfərdən 103.5 min nəfərə yüksəlib.

Bundan başqa müqayisə dövründə əhalinin hər 10 000 nəfərinə düşən xəstəliklərin sayı 1838.4-dən 1914.2-yə yüksəlib. Başqa sözlə müvafiq göstərici üzrə 3 il ərzində 4.1% arttım baş verib.

**Şəkil 1: Əhalinin hər 10 000 nəfərinə düşən xəstəliklərin sayı**




*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika komitəsi, 2016*

Qeyd edək ki, BMT tərəfindən hazırlanan İnsan İnkişafı İndeksi üzrə örta omür göstəricisi 70.9 ildən 70.8 ilə azalıb [ İnsan İnkişafı İndeksi, 2015]

Ümumilikdə Konsepsiyanın icrası dövrünü əhatə edən 2013-2016-cı illər ərzində əhalinin sağlamlığı və səhiyyə sahəsində müəyyənləşdirilmiş hədəflərə nail olunması məqsədi ilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 18 fərman və 24 sərəncam imzalanıb, Azərbaycan Respublikası Milli Məclisində 21 qanun və qanuna dəyişiklər edilib, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən isə 53 qərar qəbul edilib.

Konsepsiyanın 7.1 ci bölümünün (əhalinin sağlamlığı və səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələr) keyfiyyətli monitirinqini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə müəyyən sualların cavablandırılması xahişi ilə rəsmi ümraciətin edilməsinə baxmayaraq cavab alınmayıb. Buna görə də Səhiyyə Nazirliyinin hesabatda rəyini nəzərə almaq mümkün olmayıb.

## Müasir təhsil sisteminin formalaşdırılması

İlk növbədə onu qeyd etmək lazımdır ki, 2014-cü il 24 oktyabr tarixində Prezidentin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə" Dövlət Strategiyası qəbul olunub[11] və Konsepsiyada nəzərdə tutulan müəyyən məsələlər bu Strategiya vasitəsilə həyata keçirilməkdədir. Strategiyada müxtəlif istiqamətlər üzrə tədbirlər planı nəzərdə tutulub: səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmununun yaradılması, təhsilverənlər tərəfindən innovativ təlim metodlarının təkmilləşdirilməsi, təhsilverənlərin peşəkarlığının yüksəldilməsi və təhsilalanların qiymətləndirmə metodlarının təkmilləşdirilməsi, şəffaf, cavabdeh və səmərəli idarəetmə sistemlərinin, müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən infrastrukturun yaradılması, dünya standartları səviyyəsində təhsilin maliyyələşdirilməsi sisteminin qurulması və s. Bundan əlavə, Konsepsiyada nəzərdə tutulan təhsildə yeni maliyyələşmə mexanizminin, o cümlədən təhsilverənlərin əlavə təhsilinin dövlət hesabına maliyyələşdirilməsinin tətbiqi, təhsil tədqiqatlarının maliyyələşməsi prinsiplərinin yenilənməsi kimi yeni maliyyələşmə mexanizmlərinin tətbiqinin bu Strategiya çərçivəsində yerinə yetirilməsi gözlənilir. 19 yanvar 2015-ci il tarixli Prezident sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın təsdiq edilib[12].

9 avqust 2016-ci ildə qəbul olunan "Elm haqqında" Qanunu elmi-tədris fəaliyyəti ilə bağlı bir sıra məsələlərin, o cümlədən, elmi-innovativ fəaliyyətin maliyyələşmə mexanizmlərini, elmi fəaliyyətin stimullaşdırılması və onlardan istifadənin təşkilati-hüquqi əsaslarını müəyyən edir.[13]

Konsepsiyada nəzərdə tutulan, təhsillə bağlı xərclərin ÜDM-dəki payının artırılması və inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması üzrə tədbirlər qismən yerinə yetirilmişdir. Həmçinin yuxarıda qeyd olunan təhsil haqqında Strategiyada da bu nisbətin mərhələlərlə 5-6%-ə çatdırılması nəzərdə tutulur. Beləliklə, təhsilə ayrılan xərclərin ÜDM-dəki ümumi payı 2013-2015-ci illər ərzində davamlı olaraq artıb və 2012-ci illə (2,6 faiz) müqayisədə 2015-ci ildə 0,3 faiz bəndi artaraq 2,9% təşkil edib. Lakin bu göstərici dünyanın inkişaf etmiş ölkələri ilə müqayisədə aşağı

---

[11] Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi,"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", 24.10.2014
http://www.president.az/articles/9779

[12] "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 19.01.2016
http://www.e-qanun.az/framework/29145

[13] Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi, "Elm haqqında Azərbaycan Respublikasının Qanunu", 09.08.2016
http://www.president.az/articles/20785

səviyyədə qalır. Belə ki, Azərbaycan bu göstərici üzrə Fransa, Almaniya, Avstriya, Hollandiya, kimi Avropa ölkələrindən, həmçinin ABŞ və Kanada kimi ölkələrdən geri qalır. Bu ölkələrdə təhsilə çəkilən xərclərin ÜDM-dəki payı 2013-2015-ci illərdə 4,4-5,7% arasında dəyişib. [14]

Ümumi təhsil müəssisələrində işləyən müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin aparılması bu sahədə əməkhaqqı sisteminin yeni prinsplər əsasında qurulmasına və qiymətləndirməni uğurla tamamlayan müəllim heyyəti üçün gəlirlərin artımı baş versə də 2012-ci illə müqayisədə 2015-ci ildə təhsil sahəsində orta aylıq əmək haqqının ölkə üzrə orta əməkhaqqı göstəricisinə nisbətində azalma baş verib.

Təhsil sahəsində orta aylıq əməkhaqqı miqdarının ümumi orta aylıq əməkhaqqına nisbəti




*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika komitəsi, 2016*

Qeyd edək ki, 6 may 2015-ci il tarixində "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 220 nömrəli Fərmanında dəyişikliklər edilib[15].

Konsepsiyanın hədəflərinə uyğun olaraq, 2013-2015-ci illərdə istifadəyə verilmiş və əsaslı təmir edilmiş təhsil müəssisələrinin sayı artıb. Ümumilikdə bu dövr ərzində 311 məktəb və 111492 şagird yeri istifadəyə verilib. 2015-ci ildə 72 təhsil müəssisəsində cari təmir işləri, 1 təhsil müəssisəsində abadlaşdırma və 112 təhsil müəssisəsində kommunikasiya işləri başa çatdırılıb. Təhsil müəssisələrinni maddi-texniki bazasının təkmilləşdirilməsi istiqamətində görülən işlərin nəticəsi olaraq 50 laboratoriya yaradılıb və tam təchiz edilib.

---

[14] European Commission, "Education and Training, Monitor 2015, Country analysis", baxış tarixi: 06.09.2016 http://www.moec.gov.cy/aethee/chrisimo_yliko/education_training_2015/education_training_monitor_2015_vol2.pdf

[15] "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 220 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında", 06.05.2015 http://www.e-qanun.az/framework/29963

İnstitusional dəyişikliklər sahəsində müəyyən addımlar atılıb. 2016-ci ilə mart ayında ölkə prezidenti İlham Əliyev[16] Prezident Yanında Təhsil üzrə Komissiyanın ləğv edilməsi barədə sərəncam imzalayıb.

Təhsil sahəsintə struktur islahatları çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılıb[17]. Beləliklə ilk peşə-ixtisas təhsili sahəsində dövlət siyasətinin həyata keçirən hazırda Agentlikdir.

Həmçinin Konsepsiyada qeyd olunan müxtəlif mülkiyyətdəki məktəbəqədərki təhsil müəssisələrinin yaradılması istiqamətində müəyyən addımlar atılmaqdadır. Bununla əlaqədar, 2013-cü il 27 dekabr tarixli “Körpələr evlərinə, uşaq bağçalarına və uşaq evlərinə müddətli vergi güzəştlərinin verilməsi haqqında”[18] Azərbaycan Respublikası Qanununa əsasən, 2014-cü il 1yanvar tarixindən etibarən 10 il müddətinə körpələr evi, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evləri Azərbaycan Respublikası Vergi Məcəlləsi tərəfindən təyin edilmiş mənfəət vergisi və sadələşdirilmiş vergi ödəmələrindən azad edilib. Bununla bərabər, lisenziyaların verilməsi prosedurunun sadələşdirilməsi və sürətləndirilməsi məqsədilə Azərbaycan Respublikasının “Lisenziyalaşdırma haqqında bəzi tədbirlər” qanunu 21 dekabr 2015-ci il qanunu ilə “Lisenziyalaşma Qaydası” təsdiqlənib[19]. Qeyd edək ki, təkcə 2015-ci ildə müxtəlif mülkiyyət növünə məxsus 16 məktəbəqədər hazırlıq təhsil müəssisəsi açılıb. Məktəbəqədər təhsil müəssisələrinin sayı 2015-ci ildə 2012-ci il ilə müqayisədə 1680-dən 1722-yə yüksəlmişdir ki, nəticədə məktəbəqədər təhsil müəssisələrinin cəlb etdiyi uşaqların sayı 8,8% artıb.

Məktəbəqədər hazırlıq təhsil sektorunun inkişafı üçün 2012-2014-cü illərdə Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi və Azərbaycana Birgə Yardım Təşkilatı tərəfindən Sumqayıt, Siyəzən, Biləsuvar və Lənkəran rayonlarında 15 özünədəstək qrupunda “Sosial Hüquqların İnkişafı – həssas təbəqədən olan və məktəbəqədər təhsilə cəlb olunmayan uşaqlar üçün ictimai əsaslı strategiyalar”

---

[16] http://ann.az/az/prezident-yaninda-tehsil-uzre-komissiya-lev-edildi/#.WEak2Lk6fIU

[17] Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası PrezidentininFərmanı, 20.04.2016 http://www.e-qanun.az/framework/32601

[18] Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi , “Körpələr evlərinə, körpələr evi-uşaq bağçalarına, uşaq bağçalarına, xüsusi uşaq bağçalarına və uşaq evlərinə müddətli vergi güzəştlərinin verilməsi haqqında Azərbaycan Respublikasının Qanunu”, 04.02.2014 http://www.president.az/articles/10945

[19] Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi, “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı”, 21.12.2015 http://www.president.az/articles/17211

layihəsi həyata keçirilib[20]. Bundan əlavə, 2013-2014-cü illərdə UNICEF və Təhsil Nazirliyinin əməkdaşlığı və Maliyyə Nazirliyinin dəstəyi ilə regionlarda məktəbəqədər uşaqlar üçün 10 həftəlik qısamüddətli məktəbəqədər hazırlıq kursları təşkil olunub.

2014-2015-ci ildə Bakı şəhərinin 87, 2015-2016-cı illərdə isə 136 ümumtəhsil məktəbində 5 yaşlı uşaqlar üçün özünümaliyyələşdirmə prinsipləri əsasında fəaliyyət göstərən məktəbəqədər hazırlıq kursları fəaliyyətə başlayıb. Həmçinin 11 iyul 2016-cı il tarixində Nazirlər Kabinetinin "Uşaqların məktəbəhazırlığının təşkili məsələləri haqqında" Qərarına əsasən, 2016-2017-ci dərs ilindən başlayaraq, dövlət ümumtəhsil məktəblərində dövlət vəsaiti hesabına məkətəbəqədər hazırlıq kurslarının təşkil olunması və bu məqsədlə hər il büdcədən lazımi vəsaitin ayrılması ilə bağlı Maliyyə Nazirliyi və Təhsil Nazirliklərinə göstəriş verilib.

Maraqlı tərəflərin təhsildə idarəetməyə cəlb olunması məqsədilə 2015-2016-cı ildə ümumi təhsil müəssisələrində "Məktəb icmaları" layihəsinə start verilib. Layihənin həyata keçirilməsi üçün 54 pilot məktəb seçilib və bu məqsədlə valideyn, müəllimlər və şagirdlərlə ortaq görüşlər və seminarlar keçirilib. Həmçinin 2015-2016-cı təhsil ilinin qış və yaz semestrlərinin imtaha sessiyasını mövcud qaydalara uyğun təşkil etmək, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etmək məqsədilə imtahan sessiyasında ictimaiyyətin, QHT nümayəndələrinin, təhsil ekspertlərinin və valideynlərin iştirakı təmin edilib.

Təhsil müəssisələrində şəffaf, cavabdeh və səmərəli idarəetmə sistemlərinin bərqərar edilməsi Konsepsiyada nəzərdə tutulan əsas istiqamətlərdən biridir. Bununla əlaqədar, Təhsil Nazirliyi tərəfindən "Təhsil haqqında" qanuna əlavələr paketi hazırlanaraq, Milli Məclis və Nazirlər Kabinetinə müzakirə üçün göndərilib. Bundan əlavə, idarəetmənin restrukturizasiyası ilə əlaqədar, 24 iyul 2014-cü ildə "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" qanun imzalanıb.[21] Maliyyə hesabatlılığını və şəffaflığı artırmaq məqsədi ilə Təhsil Nazirliyinin 14 dekabr 2015-ci il tarixli əmrinə əsasən, 15 regionda yaxın rayon və şəhərləri əhatə edən ərazi maliyyə hesablaşma məntəqələri yaradılıb.

İdarəetmənin təkmilləşdirilməsi sistemində daha bir addım kimi, məktəb direktorları və gələcəkdə bu vəzifədə işləmək istəyən pedaqoji kadrların peşəkarlıq səviyyəsinin artırılması üçün yeni mexanizmin tətbiqi davam etdirilməsidir. Burada əsas məsələ peşəkar keyfiyyətlərə və bacarıqlara əsasən, yeni nəsil menecerlərin yetişdirilməsidir və bu məqsədlə müsabiqə təşkil

[20] Azərbaycan Respublikası Təhsil Nazirliyi, "Məktəbəqədər təhsilə diqqətin artırılması ölkənin inkişafını şərtləndirən amildir", 14.03.2014
http://edu.gov.az/az/page/431/8256
[21] Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi, "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı", 24.07.2014
http://www.president.az/articles/12441

edilib. Təşkil edilən müsabiqəyə 400 nəfər müraciət edib ki, bunlardan da 100-ü təlimlərə cəlb edilib, 73 nəfər isə müsabiqə mərhələsinə buraxılıb. Oxşar prosedur həmçinin regionlarda da həyata keçirilib. Burada 338 nəfər müsabiqəyə cəlb edilib və 81 nəfər təlimlərdə iştirak hüququ qazanıb.

İnnovativ və informasiyalaşdırılmış təhsil metodlarının tətbiq edilməsi məqsədilə "SABAH" layihəsi işə salınıb və hazırda da tətbiq edilməkdədir. Bu layihə 33 təhsil müəssisəsində 33 ixtisas üzrə 769 tələbənin cəld edilməsi ilə icra edilməkdədir. Layihə SABAH tələbələrinin xarici mübadilə proqramlarında iştirakını, intensiv xarici dil tədrisini, həmçinin tələbələrin əmək bazarının tələblərinə uyğun şəkildə təlimləndirilməsi təcrübə proqramlarında iştirakını, aztəminatları ailələrdən gəlmiş tələbələrin yataqxana və yeməklə ətmin olunması, dövlət sifarişi və ödənişli əsaslarla təhsil alan SABAH tələbələrinə təqaüdlərin təqdim olunması məsələləri üzərində işləyir.

Məktəblərin kompüterləşdirilməsi və İKT imkanlarının genişləndirilməsi ilə bağlı tədbirlər davam etməkdədir. Kompüterlə təmin olunmuş məktəblərin sayı 2012-ci il ilə müqayisədə 2013-cü ildə 45, 2014-cü ildə isə 247 daha çoxdur. Beləliklə, əgər 2012-ci ildə ümumilikdə orta təhsil məktəblərinin 87.2%-i kompüterlə təmin olunmuşdusa, 2014-cü ildə bu rəqəm 93,1%-dir. İnternetə çıxışı olan məktəblərin sayı həmçinin artmaqdadır. 2012-ci il ilə müqayisədə 2013-cü ildə əlavə 64 məktəbin, 2014-cü ildə isə əlavə 244 məktəbin internetə çıxışı təmin olunmuşdur. İnternetdə istifadə etmiş şagirdlərin sayında da artım müşahidə olunur. 2012-ci il ilə müqayisədə 2014-cü ildə internetə çıxışı olan şagirdlərin ümumi şagird sayındakı payı 36,5%-dən 47,1%-ə qədər artmışdır. Bu artım xüsusilə Quba-Xaçmaz və Dağlıq Şirvan regionları üçün xüsusilə nəzərəçarpandır. Ölkə üzrə ən yüksək göstərici isə Naxçıvan MR-na aiddir. 2015-ci ilə olan məlumata görə, 2051 məktəbin İnternet və ya İntranetə çıxış vardır, bu da bütün məktəblərin 44%-ni təşkil edir. Həmçinin təhsilverənlərin İKT bacarıqlarının artırılması məqsədilə, 4492 müəllim təlimdən keçərək, İKT biliklərinə yiyələnib.

Təhsil sahəsində müxtəlif müraciətlərin qəbulu və idarəetmə sisteminin elektronlaşdırılması istiqamətində bəzi tədbirlər görülüb. İlk növbədə müəllimlərin işə qəbulu prosesi elektron qaydada həyata keçirilib ki, bu da prosesin şəffaflığını artırır . 2015-ci ildə 24 000-ə yaxın elektron müraciət olub və 3000-dən çox müəllim işlə təmin olunub. Bundan əlavə, Təhsil Nazirliyinə göndərilən müraciətlərin xüsusi çəkisi ümumi müraciətlərdə artmaqdadır. 2014-cü ildə nazirlik tərəfindən qəbul olunan 7,8%-i, 2015-ci ildə isə 17%-i elektron müraciətlərin payına düşür. Həmçinin şagirdlərin 1-ci sinfə qəbulu elektron formada həyata keçirilməyə başlanıb, ali təhsil müəssisələri diplomlarının elektron məlumat bazası yaradılıb.

Ümumilikdə nazirlik tərəfindən qəbul edilən elektron müraciətlərin sayı da nəzərdən keçirilən illər ərzində artmışdır. Belə ki, 2013-cü ildə Təhsil Nazirliyinə 3900, 2014-cü ildə 5000, 2015-ci ildə isə əvvəlki ilə nisbətən iki dəfə artaraq, 10332 ərizə daxil olmuşdur. Nazirliyə yönəldilən bütün sorğular və ərizələr qanunvericiliyin tələblərinə uyğun şəkildə cavablandırılmışdır.

Təhsilin informasiyalaşdırılması ilə bağlı digər addımlardan biri də "Elektron dərslik" sisteminin yaradılmasıdır. Bu sistemə müxtəlif fənlər və siniflər üzrə dərsliklər yüklənmiş və şagirdlərin dərsliklərdən istifadəsini asanlaşdırmaq üçün həmçinin oflayn rejimdə yükləyərək oxuma üçün şərait yaradılıb. Həmçinin elektron resursların inkişafı istiqamətində e-resurs.edu.az portalı genişləndirilmiş, e-derslik.edu.az, e-sinif.edu.az, e-telim.edu.az, e-test.edu.az, imtahan.edu.az, i-olimp.edu.az kimi portallar istifadəyə verilib.
2015/2016-cı tədris ilinə ümumtəhsil məktəblərinin IV, VI və VIII sinifləri üçün 141 adda 4 milyondan çox nüsxə dərslik və müəllim üçün metodik vəsaitin nəşri və 12 çapı təşkil edilmiş, müvafiq bölgü əsasında məktəblərə çatdırılması təmin olunmuşdur.

Bununla yanaşı, I və II sinif şagirdlərinin sayının əhəmiyyətli dərəcədə artması ilə bağlı I siniflər üçün 10 adda 8 min nüsxə, II siniflər üçün 16 adda 82 min nüsxə dərslik çap olunmuşdur. Bununla yanaşı, dərslik siyasəti sahəsində hüquqi normativ bazanın təkmilləşdirilməsi, dərsliklərin keyfiyyətinin yüksəldilməsi, ehtiyacın düzgün proqnozlaşdırılması, ehtiyat dərsliklərin hazırlanması sahəsində sistemli tədbirlərin həyata keçirilməsi istiqamətindən tədbirlər həyata keçiriləcəkdir.

2014-cü ildən başlayaraq, dərsliklərin keyfiyyətinin və ehtiyac duyulan mövzuların təkmilləşdirilməsi ilə əlaqədar ilk dəfə olaraq, pedaqoji profilli ali təhsil müəssisələrinin, qabaqcıl müəllimlərin rəyləri və fikirləri nəzərə alınmışdır. Bundan əlavə, 2014-cü ildə ilk dəfə olaraq, yeddinci siniflər üçün dərsliklər 1 il əvvəldən hazırlanaraq, məktəblərə sınaqdan keçirilməsi üçün paylanılmışdır. Lakin sınaqların nəticələri ilə bağlı ətraflı hesabatlılıq mövcud deyil.

Valideynlərin təhsilin təşkili və idarəetməsində iştirakının artırılması üçün xüsusi portal yaradılıb və artıq bir neçə məktəbdə tətbiq olunmaqdadır. Belə ki, Təhsil Nazirliyi tərəfindən təqdim olunan bu portal valideynlərə məktəb tərəfindən verilən xüsusi ad və şifrəni daxil etməklə işə salınır və hər bir valideyn öz övladının və ya övladlarının dərsdəki fəaliyyəti və nailiyyətləri ilə tanış olur. Hal-hazırda bu layihəyə ölkə üzrə 43 məktəb cəlb olunub[22], lakin konsepsiyda nəzərdə tutulan, 1000 elektron məktəbin yaradılması hədəfinə hələ nail olunmayıb.

---

[22] Azərbaycan Respublikası Təhsil Nazirliyi, "Valideyn Nəzarət Sistemi" yenilənib, http://edu.gov.az/az/page/9/12143

Təhsilin informasiyalaşmasında daha bir istiqamət olan distant təhsilin tətbiqi üçün Təhsil Nazirliyi tərəfindən "Ali Təhsil müəssisələrində distant təhsilin təşkili Qaydaları"nın layihəsi hazırlanıb və müzakirələrdən sonra təsdiq üçün hökumətə təqdim ediləcəkdir. Bundan əlavə, distant təhsilin blender learning (qarışıq tədris) versiyası bir neçə ildir ki, Xəzər universitetində və Azərbaycan Dövlət İqtisad Universitetində pilot olaraq həyata keçirilir. Hal-hazırda 50-dən artıq fənn bu üsul ilə tədris olunur.

Distant təhsil həm də sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsilinin təşkili üçün tətbiq olunur. Bununla əlaqədar, Bakı şəhərində 97, Gəncə şəhərində 16, Qazax rayonunda 15, Samux rayonunda 1, Tovuz rayonunda 4, İsmayıllı rayonunda 17, Ağdam rayonunda 1, Ağstafa rayonunda 9, Şəmkir rayonunda 50, ümumilikdə 210 sağlamlıq imkanları məhdud olan şagird və onlara dərs deyən 40 müəllim ən yeni kompüter avadanlığı, müvafiq proqram təminatı ilə təchiz olunmuş, şagirdlərin yaşadığı 210 ev Azərbaycan Təhsil şəbəkəsinə qoşularaq, ADSL internet bağlantısı ilə təmin edilib.

Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2015-ci il qərarı ilə, "Fiziki məhdud insanların təhsili haqqında" qanuna əsasən, sağlamlıq imkanları məhdud şəxslərin valideynlərinin və ya digər qanuni nümayəndlərinin uşaqlarının təhsil, tibbi və reabilitasiya mərkəzlərinə aparılıb-gətirilməsi üçün Qanunda nəzərdə tutulmuş həcmdə vəsait ayrılıb. 2014-cü ildə "2015-2022-ci illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" hazırlanaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilib.

İnklüziv təhsilin daha bir inkişaf istiqamətlərindən biri hesab oluna biləcək səyyar məktəblərin yaradılması üzrə proqram artıq hazırlanmaqdadır. Bu növ modul məktəblər ilk dəfə olaraq, Lerikin Qələbin, İsmayıllının Yenikənd kənd ümumi orta məktəblərini, Saatlının Mircəlal, Yardımlının Avur, Lənkəranın Təngivan kənd ibtidai məktəbini əvəz edəcək. Modul tipli məktəblər bir tərəfdən, azməsrəflidir, qısa müddət (1 ay) ərzində istənilən relyefdə quraşdırıla bilir, asanlıqla daşınır, həmçinin sinif otaqlarının sayının şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılmasıdır. Modul tipli məktəblərin digər üstünlüyü budur ki, qəzalı vəziyyətdə olan təhsil müəssisələrində təmir-tikinti işləri aparılarkən kəsintisiz təhsil prosesinin təşkil edilməsində böyük rol oynayır və bu məqsədlə müvəqqəti olaraq, 50 yerlik səyyar məktəb quraşdırılmaqdadır.

Digər tərəfdən, Konsepsiyada nəzərdə tutulan peşə təhsil müəssisələrinin ümumi sayında cüzi artım müşahidə olunub (2012-ci ildə 107 və 2016-cı ildə 113). Çoxprofilli kolleclərin yaradılması istiqamətində müəyyən addımlar atılıb. Belə ki, artıq 2013-cü ildə İsmayıllı rayonunda ölkə üzrə ilk çoxprofilli kollecin əsası qoyulub. Kollec 11 ixtisas üzrə və 285 tələbəyə təhsil

vermək qabiliyyətindədir.[23] 2014-cü ildə Masallı rayonunda Dövlət Regional Kollecinin yaradılmış, kollec "Aqronomluq", "Meşə və meşə park təsərrüfatı", "Baytarlıq", "Turist, mehmanxana təsərrüfatlarının təşkili və idarəedilməsi", "Turizm və onun təşkili" istiqamətlərində kadr hazırlığına başlanılıb.

Konsepsiyada nəzərdə tutulan Dövlət Proqramlarının hazırlanması ilə bağlı ləngimələr mövcuddur. Belə ki, "2013-2020-ci illərdə Təhsil Sisteminin İnformasiyalaşdırılmasına dair" və "2015-2020-ci illərdə Gənclərin Xaricdə Təhsilinə dair" Dövlət Proqramları hazırlanıb təqdim olunub, lakin hələ qəbul olunmayıb. Təhsil sisteminin informasiyalaşmasına dair Qanunda nəzərdə tutulan "1 şagird-1 kompüter" prinsipi hələ yerinə yetirilməyib, 2015-ci il məlumatına əsasən, hər 18 şagirdə 1 kompüter düşür. Bundan əlavə, Konsepsiyada nəzərdə tutulan "Təhsil-TV" onlayn kanalı hələ yaradılmayıb.

"2007-2015-ci ildə Azərbaycan Gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2013-2016-ci illərdə 2340 tələbə müxtəlif təhsil pillələri üzrə xaricdə təqaüdlə təhsil almaq hüququ qazanıb.

**"2007-2015-ci ildə Azərbaycan Gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2012-2016-cı illərdə təhsil alanları dinamikası**




Onu da qeyd etmək lazımdır ki, 2015-ci ildə xarici ölkələrdə təhsil dövlət proqramının tamamlanmasına baxmayaraq hələlik yeni dövlət proqramı qəbul edilməyib və faktiki olaraq 2016-2017-ci təhsil illəri üçün müsabiqə elan edilməyib.

Konsepsiyada nəzərdə tutulmuş, ali məktəblərdə müəllimlərin əməyinin qiymətləndirilməsi zamanı differensial əmək haqqı sisteminin tətbiqinə artıq başlanmışdır. Azərbaycan Dövlət İqtisad Universitetində 2015-ci ilin nəticələrinə əsasən, 2016-2017-ci il üçün

[23] İsmayıllı Xəbərləri, "İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci", 13.07.2016 http://ismayilli-xeberleri.info/930-304smay305ll305-d246vl601t-humanitar-v601-texnologiya-kolleci.html

differensiallaşdırılmış əmək haqqında sistemi qüvvəyə minib. Sistem "Ultra Technologies" şirkətinin köməyi ilə həyata keçirilməkdədir.[24]

Konsepsiyada qeyd olunan digər istiqamət: təhsil sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi üzrə "Erasmus Mundus" və "Tempus" layihələri üzrə çərçivəsində beynəlxalq təcrübənin mənimsənilməsi və professor-müəllim mübadiləsi həyata keçirilib. Universitetlərin 500-dən çox müəllimi bu layihələr çərçivəsində müxtəlif treninq və seminarlarda iştirak edib.

Təhsil prosesində və təhsil müəssisələrindəki neqativ halların nəzərdən keçirilməsi və müvafiq tədbirlər görülməsi ilə bağlı 2013-cü ildə Daxili Nəzarət Şöbəsi yaradılmış və daxil olan siqnalların birbaşa həmin şöbədə araşdırılması təmin edilmişdir. 2013-cü ilin ikinci yarısında ciddi nöqsanlara yol vermiş 15 təhsil müəssisəsinin rəhbəri vəzifəsindən azad edilmiş, 21 şəxs barəsində digər intizam tənbehi görülmüşdür. İki hal üzrə toplanmış materiallar araşdırılmaq üçün hüquq-mühafizə orqanlarına göndərilmişdir.2014-cü ildə müvafiq olaraq, 1 Rayon Təhsil Şöbəsi (RTŞ) müdiri, 2 RTŞ müdir köməkçisi, 16 təhsil müəssisəsinin rəhbəri işindən azad edilmiş, 23 şəxs barəsində digər nizam intizam tənbehi tədbirləri qəbul edilmişdir. 5 fakt üzrə toplanmış materiallar araşdırılmaq üçün hüquq-mühafizə orqanlarına göndərilmişdir. 2015-ci ildə neqativ halların və korrupsiyanın araşdırılması ilə əlaqədar 7 cinayət əlaməti olan fakt üzrə sənədlər prokurorluğa ünvanlanmış, vətəndaşların təqdim etdiyi şikayətlərin təsdiqlənməsi ilə 21 nəfər vəzifəli şəxs tutduğu vəzifədəna azad edilmiş, 41 nəfər barəsində isə müxtəlif intizam tənbehi tədbirləri tətbiq edilmişdir.

Ümumilikdə isə Konsepsiyanın icrası dövrünü əhatə edən 2013-2016-cı illər ərzində müasir təhsil sisteminin formalaşdırılması üçün müəyyənləşdirilmiş hədəflərə nail olunması, təhsil sistemində islahat xarakterli dəyişiklərin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 18 fərman və 72 sərəncam imzalanıb, Azərbaycan Respublikası Milli Məclisində 5 qanun və qanuna dəyişiklər edilib, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən isə 105 qərar qəbul edilib.

[24] İctinfo, "Azərbaycanda ilk differensial əmək haqqı sistemi", 07.10.2016
http://ictinfo.az/az%C9%99rbaycanda-ilk-differensial-%C9%99m%C9%99k-haqqi-sistemi/

# Sosial müdafiə sisteminin təkmilləşdirilməsi

Konsepsiyanın 7.3-cü bəndi ölkədə layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədi ilə iqtisadi böyümənin davamlılığını, sosial müdafiə sisteminin təkmilləşdirilməsini, yoxsulluq və işsizlik kimi mühüm istiqamətlər üzrə konseptual mübarizənin təşkilini, yaşayış minimumu, ehtiyac meyarı, minimum əmək haqqı, orta aylıq gəlir, gəlir bərabərsizliyinin səviyyəsi və s. bu kimi mühüm komponentlərin yüksəldilməsini təmin edəcək fəaliyyətlərin icrasını nəzərdə tutur.

Konsepsiyada sosial müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində nəzərdə tutulan fəaliyyətlərinin icra olunma səviyyəsinə keçməzədən əvvəl qeyd etmək istəyirik ki, bu sahədə nəzərdə dinamika daxili və xarici faktorların təsirinə daha çox məruz qalır. Beləki, qlobal iqtisadi trendlərin istiqaməti, region ölkələrində müşahidə edilən sosial-iqtisadi dəyişiklər, dünya bazarlarında neft qiymətlərinin ucuzlaşması nəticəsində devalvasiya və artan idxal infilyasiyası bu istiqamətdə görülən işlərin sosial indikatorlara müsbət təsir imkanlarını azaldıb. Hətta bir çox göstəricilər üzrə geriləmə müşahidə edilib.

Ölkədə sığorta pensiya sisteminin təkmilləşdirilməsi məqsədi ilə ilk olaraq "2009–2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı" cərcivəsində işlərin davam etdirilməsi nəzərədə tutulub. Ötən dövr ərzində [2013-2016] Dövlət Proqramı çərçivəsində aşağıdakı işlər görülüb.

- 2013-cü ilin 11 iyul tarixindən etibarən Dövlət Sosial Müdafiə Fondu tərəfindən yaşa görə əmək pensiyalarının avtomatlaşdırılmış qaydada vahid mərkəzdən təyinatına start verilib[25]. Bu sistem MDB məkanında ilk təcrübə hesab edilir[26]. Avtomatlaşdırılmış sistemin tətbiqi DSMF-nin fəaliyyətində şəffaflığın təmin edilməsi, prosesin real vaxt regimində həyata keçirilməsi və vaxt itkisinin qarşısının alınması, insan amilinin rolunun aradan qaldırılması yolu ilə neqativ halların azaldılması, subyektiv yanaşmaların qarşısının alınmasına imkan yaradır.
- 2014-cü ilin yanvar ayından etibarən "Pensiya+" xidməti istifadəyə verilib. Bunun əsas məqsədi vətəndaşların pensiya kartlarından çoxşaxəli istifadəsinin təmin edilməsi və

---

[25] Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Föndu, Vaqif Bayramov, 12.09.2013
http://www.sspf.gov.az/view.php?lang=az&menu=358&id=1289

[26] Vergi Jurnalı, " Azərbaycan MDB-də avtomatlaşdırılmış pensiya sisteminə keçmiş ilk ölkədir", Anar İsayev
http://vergiler.az/art-view/1919/ , baxış tarixi: 13.07.2016

ölkədə nağdsız ödənişlərin təşviq edilməsidir[27]. Beləliklə pensiyaçılar əlavə rüsum və kredit faizi ödəmədən pensiya kartlarında əvvəlcədən müəyyənləşdirilmiş hədd daxilinində əlavə vəsaitdən (yalnız nağdsız ödəmələr zamanı) istifadə etmək imkanı əldə ediblər.

- 2015-ci ilin sonuna ölkə üzrə pensiyaların plastik kartlarla ödənişi prosesi tamamlanıb. Kənd yerlərində yaşayan pensiyaçılar da daxil bütün pensiyaçıların pensiyasının plastik kartlarla ödənilməsi təmin olunub[28]. Pensiyaların plastik kartla ödənilməsi vətəndaşlardan haqsız odəniş tələbinin azalmasına səbəb olub.
- Sığortaedənlərin qeydiyyatının tam avtomatlaşdırılması, sığortaolunanların dövlət sosial sığorta sistemində avtomatlaşdırılmış qaydada uçota alınması təmin edilməyib. Bu öhdəliklərin yerinə yetirilməsi yeni hazırlanan və 2016-2020-ci illəri əhatə edən Dövlət Proqramında nəzərdə tutulub. Dövlət Proqramı layihəsində bu işlərin 2020-ci ilədək yekunlaşdırılması nəzərdə tutulur. Bundan başqa Dövlət Proqramının icrası nəticəsində 2020-ci ilədək məcburi dövlət sosial sığortası üzrə hesabatlar, sığorta haqqı üzrə sığortaolunanlar haqqında məlumatlar elektron qaydada ötürüləcək və qəbul ediləcək, sığortaedənlərdə audit elektron qaydada aparılacaqdır. Eyni zamada ölkə vətəndaşlarının pensiya təyinatı üçün hər hansı sənəd təqdim etməsinə ehtiyac olmayacaq.[29]
- 2015-ci ildə sığortaedənlərdə auditin elektron formada aparılması tələbinin yerinə yetirilməsi məqsədi ilə beynəlxalq təcrübənin öyrənilməsi (elektron auditin tətbiqi üçün hüquqi bazanın və metodologiyasının hazırlanması ) üçün Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti çərçivəsində tvinninq layihəsi Avropa Komissiyası tərəfindən təsdiq olunub[30].
- "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nın tələbinin yerinə yetirilməsi üçün aidiyyəti dövlət orqanlarının iştirakı ilə

---

[27] Səs İnformasiya Agentliyi, "Bu gündən "Pensiya+" xidməti istifadəyə verildi"
http://sia.az/az/news/social/390102-bu-gunden-pensiya-xidmeti-istifadeye-verildi

[28] Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Föndu, "Dövlət Sosial Müdafiə Fondunda 2015-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib", 19.02.2016
http://www.sspf.gov.az/view.php?lang=az&menu=400&id=2210

[29] Xalq Qəzeti, "Əhalinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir", 08.08.2015
http://www.xalqqazeti.com/az/news/social/60702

[30] Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Föndu, "Dövlət Sosial Müdafiə Fondunda 2015-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib", 19.02.2016
http://www.sspf.gov.az/view.php?lang=az&menu=400&id=2210

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Qanun layihəsi hazırlanıb.[31]

- Azərbaycanda pensiya təminatı sisteminin perspektiv inkişafının aktuar modelləşdirmə əsasında proqnozlaşdırılmasının təşkili üçün zəruri daxili texniki və institusional potensialın artırılması məqsədilə Dünya Bankı ilə birlikdə PROST modelinin sığorta-pensiya sistemində tətbiqi və Avropa İttifaqının Avropa Qonşuluq və Əməkdaşlıq Aləti olan TAİEX proqramı çərçivəsində "Aktuar tədqiqatlar və pensiya sistemi üzrə modelləşdirmə" layihəsi həyata keçirilib.

Konsepsiyanın 7.3-cü bəndində pensiya islahatlarının daha da dərinləşdirilməsi məqsədi ilə 2016–2020-ci illər üçün yeni Dövlət Proqramının hazırlanması nəzərdə tutulsada proqram təsdiqlənməyib. Lakin, Azərbaycan Respublikası Prezidentinin 4 noyabr 2014-cü il tarixli Sərəncamı ilə "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı konsepsiyası" təsdiq edilib . Konsepsiyanın məqsədi pensiya təminatı sisteminin cari, ortamüddətli və uzunmüddətli dövr üzrə maliyyə dayanıqlılığına nail olunması, pensiya təminatının vətəndaşların sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etməkdir. Bu konsepsiyanın həyata keçirilməsi üzrə tədbirlər planının 7.1.2.4-cü bəndində könüllü sosial sığorta haqqının ödənilməsi şərtlərinin 2014-2015-ci illər ərzində müəyyənləşdirilməsi AR Dövlət Sosial Müdafiə Fonduna tapşırılıb. Lakin, bu öhdəlik hələlik yerinə yetirilməyib.

Könüllü sosial sığortalanmanın tətbiqi və özəl pensiya fondalrının yaradılması məqsədi ilə beynəlxalq ekspertlərin iştirakı ilə iki qanun layihəsi hazırlanıb. Bu qanun layihələrində könüllü sosial sığorta haqlarının toplanması, vəsaitlərin idarə edilməsindən formalaşan gəlirlərin fərdi uçotunun aparılması, icraçı şirkətlərə qarşı tələblər, investisiya qaydaları, qeyri-dövlət pensiya fondlarının yaradılması, onların fəaliyyətinin təşkili və tənzimlənməsi və idarəetmənin təmini məqsədi ilə mexanizmlərin formalaşdırılması, qeyri-dövlət pensiyalarının təyinatı, ödənilməsi, prosesə dövlət nəzarətinin istiqamətləri kimi məsələlər əks olunub[32]. Ancaq bu qanunlar hələlik təsdiqlənməyib.

---

[31] Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Föndu, "Dövlət Sosial Müdafiə Fondunda 2015-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib", 19.02.2016
http://www.sspf.gov.az/view.php?lang=az&menu=400&id=2210

[32] Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Föndu, 04.03.2016
http://www.sspf.gov.az/view.php?lang=az&menu=400&id=2248

Əhalinin kəmiyyət və keyfiyyət artımı konsepsiyada müəyyənləşdirilmiş inkişaf istiqamətərindən biridir. Bu məqsədlə "Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı (2014-2025-ci illər)" hazırlanıb[33]. Lakin, Dövlət Proqramının təsdiq edilməyib. Bu səbəbdən "Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı (2016-2025-ci illər)"[34] yeni layihə hazırlanaraq Nazirlər Kobinetinə təqdim edilib. Hələlik Dövlət Proqramı təsdiq edilməyib.

İşləyən vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək məqsədi ilə iqtisadiyyatın inkişafından asılı olaraq minimum əməkhaqqı məbləğinin tədricən minimum yaşayış standartlarına və Avropa ölkələrində müəyyən edilmiş normativə-orta aylıq əməkhaqqının 60 faizi məbləğinə çatdırılması nəzərdə tutulsa da hələlik bu məqsədə nail olmaq mümkün olmayıb.

***Şəkil 2: Minimum əmək haqqı məbləğinin orta yalıq əmək haqqına nisbəti***




*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika komitəsi, 2016*

Beləki, minimum əmək haqqı səviyyəsi 2013-cü ildə 93,5 manatdan 105 manata, 2017-ci ilinin yanvarında isə 105 manatdan 116 manata qədər artırılıb. 2015-ci ildə isə minimum əmək haqqı orta aylıq əmək haqqının 22,5%-i həcmində olub ki, bu da 2012-ci illə müqayisədə 1 faiz bəndi geriləmə deməkdir. Xatırladaq ki, konsepsiyada nəzərdə tutulan hədəfə nail olunması üçün hazırda minimum əmək haqqının 296 manat səviyyəsinə yaxınlaşması gərəkli idi. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol

[33] Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, "Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı (2014-2025-ci illər)", 01.06.2014

http://www.mlspp.gov.az/az/pages/373

[34] Azərbaycan qəzeti, "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində BMT-nin Əhali Fondunun regional direktoru ilə görüş olub", 07 İyun 2016

http://www.azerbaijan-news.az/index.php?mod=3&id=98514

Xəritəsi" də 60 faizlik hədəf 2025-ci ildən sonrakı hədəflər sırasına daxil edilib[35] ki, bu da 2020-ci ilə dək bu hədəfin əlçatan olmadığını deməyə əsas verir.

Konsepsiyanın icra edildiyi 4 il ərzində əhalinin gəlirlərinin strukturunda müəyyən dəyişiklər baş verib. Beləki, əgər 2012-ci ildə ölkə vətəndaşı əldə etdiyi gəlirin hər 100 manatından 16-nı pensiya, müavinət və sosial yardımlardan qazandığı halda 2015-ci ildə bu göstərici 15 manat olub. Başqa sözlə əhalinin gəlirlərində dövlət büdcəsinin payı ötən 2015-ci il ərzində 1% azalıb.

**Cədvəl 4: Əhalinin aylıq gəlirlərinin strukturu, illər üzrə**

| | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|
| | | | | |
| Muzdla işləyənlərin əməyinin ödənilməsi (əmək haqqı) (*manat*) | 62.1 | 70.7 | 74.8 | 78.2 |
| Sahibkarlıq fəaliyyəti və özüməşğulluqdan gəlirlər (*manat*) | 48.6 | 55.2 | 61.2 | 63.9 |
| Kənd təsərrüfatından gəlirlər (*manat*) | 26.3 | 29.8 | 30.6 | 32.1 |
| İcarədən gəlirlər (*manat*) | 1.5 | 1.6 | 1.7 | 1.7 |
| Əmlakdan gəlirlər (*manat*) | 0.4 | 0.5 | 0.5 | 0.5 |
| Alınmış cari transfertlər (*manat*) | 32.2 | 34.6 | 36.7 | 38.0 |
| pensiyalar (*manat*) | 27.4 | 29.3 | 31.0 | 32.2 |
| müavinət və sosial yardımlar (*manat*) | 3.1 | 3.4 | 3.9 | 3.9 |
| naturada sosial transfertlər (*manat*) | 1.7 | 1.8 | 2.0 | 2.0 |
| Digər gəlirlər (*manat*) | 19.7 | 22.3 | 24.5 | 26.0 |
| digər ailələrdən alınmış gəlirlər (*manat*) | 14.4 | 16.5 | 18.5 | 19.7 |
| ölkə xaricindən göndərilən pul (*manat*) | 5.3 | 5.8 | 6.0 | 6.3 |
| Cəmi gəlirlər (*manat*) | 190.9 | 214.7 | 230.0 | 240.5 |

***Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika komitəsi, 2016***

Əhalinin gəlirlərinin struktur təhlili zamanı aydın olur ki, 2012-2015-ci illər ərzində sahibkarlıq fəaliyyəti və özününməşğulluqdan əldə edilən gəlirlərin ümumi gəlilərdə xüsusi çəkisi 1.2% faiz bəndi artaraq 26.7% olub.

Ölkədə təhlükəsiz və sağlam əmək şəraitinin təmin edilməsi məqsədi ilə əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması üzrə Dövlət Proqramının hazırlanması nəzərdə tutulsa da hələlik bu proqram qəbul edilməyib. Lakin, aparılan marifləndirmə, sahibkarlıq subyektlərinə qarşı tətbiq edilən sanksiyalar və nəzarətin artırılması nəticəsində bu sahədə müəyyən dəyişikliklər baş verib. Beləki, 2012-ci illə müqayisədə 2015-ci ildə sanitar gigiyena normalarınnın pozulduğu şəraitdə işləyənlərin sayında 3%, ağır fiziki əməklə məşğul olanların sayı 14,2%, təhlükəsizlik tələblərinə cavab verməyən avadanlıqlarla işləyənlərin sayı isə 29,6% azalıb.

[35] Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi", 09.12.2016
http://azertag.az/store/files/news/STRATEJI%20YOL%20XERITESI.pdf

Qeyd edək ki, 2012-ci illə müqayisədə əməyin mühafizəsinə çəkilən xərclərin həcmi 34,2% artaraq illik 67,8 milyon manata yüksəlib. Nəticədə istehsalatda bədbəxt hadisələr zamanı zərər çəkənlərin ümumi sayı 31,7% azalıb, hər yüz min nəfərə ölüm halları isə 5 nəfərdən 3 nəfərə enib.

Konsepsiyada nəzərdə tutulan əmək və məşğulluq sahəsində milli informasiya sistemi yaradılması istiqamətində işlər davam etdirilir. 2014-cü ilin iyul ayından etibarən əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi fəaliyyətə başlayıb. Qeyd edək ki, bu sistem MDB məkanında ilk dəfə Azərbaycanda qurulan elektron sistem əmək bazarı haqqında dolğun və obyektiv informasiya bazası formalaşdırmaqla yanaşı əmək münasibətlərinə real vaxt çərçivəsində və çevik nəzarət imkan yaradıb. 1 yanvar 2016-cı il tarixinə elektron informasiya sistemində 68,6 mindən çox işəgötürən tərəfindən daxil edilmiş 2,86 milyondan cox bildiriş qeydiyyata alınmışdır. 2015-ci ildə 360,6 min iş yeri üzrə əmək müqaviləsinin bağlanması, 369,6 min iş yeri üzrə əmək müqaviləsinə xitam verilməsi halı sistem tərəfindən qeydə alınmışdır[36].

Konsepsiyanın müəyyənləşdirdiyi istiqamətlərdən biri kimi, əhalinin sosial təminat sisteminin daha da təkmilləşdirililməsi məqsədi ilə 25 fevral 2015-ci il tarixində "Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında"[37] Azərbaycan Respublikası Prezidenti tərəfindən Fərman imzalanıb. Beləliklə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi VEMTAS-ın (Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi) yaradıb. Bundan başqa "Özünədəstək" ünvanlı yardım mexanizminin ölkə üzrə tətbiqinə şərait yaradacaq "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanunu"nun layihəsi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında "Sosial Dəstək Fondu"nun yaradılması ilə bağlı təkliflər paketi və 2013-cü ilin yanvar ayında Nazirlər Kabinetinə təqdim edilib. Qeyd edək ki, hələlik "Sosial Dəstək Fondu"nun yaradlması məsələsi təsdiqlənməyib.

Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2013 - cü il tarixli Sərəncamı ilə İkinci Dünya müharibəsində Leninqrad şəhərinin mühasirəsi zamanı orda olan və medal yaxud döş nişanı ilə təltif edilmiş vətəndaşlara Prezident təqaüdü təsis edilib, Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2013-cü il tarixli Fərmanına uyğun olaraq 2014-cü ilin yanvar ayından etibarən beşdən çox uşağı olan qadınların uşaqlarının hər birinə görə aylıq 30 manat müavinət

---

[36] Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2015-ci il üzrə fəaliyyəti haqqında hesabat" http://www.mlspp.gov.az/Senedler-2016/2015%20HESABAT-%C6%8F%C6%8FSMN.pdf , 09.08.2016

[37] "Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 25.02.2015 http://www.e-qanun.az/framework/29391

müəyyənləşdirilib, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli Fərmanı ilə I qrup əlillərə aylıq 60 manat məbləğində Prezident təqaüdü təyin olunub. Bundan başqa Azərbaycan Prezidentinin 2014-cü il 18 mart tarixli Sərəncamına uyğun olaraq müharibə əlilləri və şəhid ailələrinin ödənişli ali və orta ixtisas təhsil müəssisələrində təhsil alan övladlarının təhsil haqlarının 2014-2015-ci tədris ilindən etibarən dövlət büdcəsi hesabına ödənilir.

2014-cü ildə sosial xidmətlərin maddi-texniki bazasının gücləndirilməsi tədbirləri çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində “142 Qaynar xətt” proqramının bazası əsasında müasir tələblərə cavab verən “142-Cağrı mərkəzi”i yaradılıb.

Konsepsiyanın hədəflərindən biri olaraq sosial təyinatlı mənzillərin (evlərin) sayının artırılması məqsədi ilə 2013-cü ildə 36, 2014-cü ildə 174 və 2015-ci ildə isə 432 fırdi yaşayış evi və mənzil həssas sosial qruplara təhvil verilib. Bundan başqa 20 iyul 2014-cü il tarixli Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamında 2014-2018-ci illər ərzində yerli icra orqanlarında qeydiyyata alınmış 5731 nəfər sakinin yaşayış sahəsi ilə təmin edilməsi nəzərdə tutulub. Bununla yanaşı qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması fəaliyyətləri çərçivəsində 2013-cü ildə 5741 ailə, 2014-cü ildə 4450 ailə və 2015-ci ildə isə 2788 ailə yaşayış sahəsi ilə təmin edilib[38]. 2015-ci ildə isə Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramının (2015-2020)” layihəsi hazırlanıb.

Qeyd edək ki, ötən dövr ərzində əhalinin digər həssas sosial qruplarının mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində də işlər davam etdirilib. Nəticədə 2013-2015-ci illər ərzində 659 Qarabağ müharibəsi iştirakçısı və 493 çoxuşaqlı ailə mənzillə təmin edilib. Xüsusi ilə də çoxuşaqlı ailələrə verilən mənzillərin sayı 2012-ci illə müqayisədə 2015-ci ildə təxminən 13 dəfə artıq olub. Bununla yanaşı gənc ailələrə verilən mənzillərin sayında da 2012-ci illə müqayisədə 81% və yaxud 4,6 dəfə artım müşahidə edilib.

**Cədvəl 5:** ***Əhalinin mənzil şəraitinin yaxşılaşdırılması***

| | **2012** | **2013** | **2014** | **2015** |
|---|---|---|---|---|
| Yaşayış sahəsi alan və yaşayış şəraitini yaxşılaşdıran ailələrin sayı | 413 | 661 | 547 | 501 |
| ondan: | | | | |

[38] Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, http://www.refugees-idps-committee.gov.az/az/pages/26.html , 13.08.2016

| | | | | |
|---|---|---|---|---|
| Böyük Vətən Müharibəsi iştirakçıları, əlilləri, həlak olan hərbi xidmətçilər və onlarla eyni hüquqlu olanlar, nəfər | 15 | 15 | 10 | 11 |
| Qarabağ müharibəsi iştirakçılarına, əlillərinə, həlak olanların və həqiqi hərbi xidmətdə olanların ailələ-rinə | 201 | 239 | 214 | 206 |
| Gənc ailələr | 12 | 46 | 97 | 68 |
| Çoxuşaqlı ailələr | 16 | 109 | 180 | 204 |
| ***Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2016*** | | | | |

2016-cı ildə isə Mənzil İnşaat Dövlət Agentliyi (MİDA) yaradılıb ki, Agentliyin əsas vəzifələrindən biri həssas sosial qrupların qısa müddətə evlə təmin edilməsidir. Qeyd edək ki, ötən dövr ərzində mənzil fondunun abadlığı istiqamətində vəziyyət zəif dinamika nümayiş etdirib.

| **Cədvəl 6:** ***Əhalinin mənzil şəraiti, mənzil fondunun abadlığı*** | | | | | |
|---|---|---|---|---|---|
| **(ilin əvvəlinə, faizlə)** | | | | | |
| | **2012** | **2013** | **2014** | **2015** | **2016** |
| Dövlət, ictimai mənzil fondunun və mənzil tikinti kooperativləri fondunun (özəlləşdirilmiş fond istisna olmaqla) aşağıdakılarla abadlaş-dırılmış mənzil sahəsinin xüsusi çəkisi, faizlə: | | | | | |
| - **su kəməri ilə** | 87,3 | 87,3 | 87,1 | 86,8 | 87,4 |
| - **kanalizasiya ilə** | 84,9 | 84,9 | 85,1 | 85,0 | 85,2 |
| - **mərkəzi istilik sistemi ilə** | 64,6 | 64,6 | 64,8 | 64,6 | 64,6 |
| - **qazla** | 85,9 | 85,9 | 92,1 | 91,9 | 91,9 |
| - **isti su ilə** | 5,2 | 5,2 | 8,8 | 6,7 | 6,7 |
| - **vanna ilə** | 72,0 | 72,0 | 72,8 | 75,0 | 75,0 |
| - **döşəməyə qoyulan elektrik plitəsi ilə** | 0,8 | 0,8 | 0,7 | 0,6 | 0,6 |
| ***Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2016*** | | | | | |

Göründüyü kimi, 2012-ci illə müqayisədə 2016-cı ilin əvvəlinə ölkə üzrə sadəcə qazla təminat sahəsində nəzərəçarpacaq inkişaf müşahidə edilib.

Sosial müavinatların artırılması məqsədi ilə görülən tədbirlər nəticəsində 2012-ci illə müqayisədə 2015-ci ildə hər bir ailə üzvünə verilən ünvanlı sosial yardımın (ÜSY) həcmi 27% artaraq 145,8 manata yüksəlib. Adambaşına məbləği isə müvafiq dövrdə 21,4% artaraq 31,8 manata yüksəlib. ÜSY –ın verilməsi prosesinin şəffaflığının təmin olunması məqsədi ilə 2013-cü ildən etbarən yardım alanların siyahısının ictimailəşdirilməsinə başlanılıb. Nəticədə sui istifadə

halları azalıb, 2012-ci illə müqayisədə ÜSY alan ailələrin sayı 21 min və yaxud 15,7% azalaraq 2015-ci ilin sonunda 112,6 min olub.

Ailələrin sosial yardıma olan ehtiyacının müəyyənləşdirilməsi qaydalarının təkmilləşdirilməsi məqsədi ilə Nazirlər Kobineti 11.02.2016-cı il tarixli qərar ilə "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"na dəyişiklər edib. Yeni qaydalarda ÜSY almaq hüququ olan ailələr üçün konkret tələbləri müəyyən edilib. Eyni zamanda ÜSY almaq istəyən vətəndaş elektron qaydada Nazirliyə müraciət edə bilər. Müraciət zamanı tələb olunan sənədlərin sayı 15-dən 3-ə endirilib. ÜSY-ın verilməsindən imtina və yaxud dayandırılması qaydalarında dəyişiklər edilib və yeni qaydalara görə kredit götürənlərə və təhsil haqqı ödəyənlərə də sosial yardım verilir. Bundan başqa alqı-satqı üçün məhdudiyyət təxminən 20% artırılaraq yaşayış minimumunun 12 misli səviyyəsində müəyyən edilib. Həmçinin yeni qaydala görə 1-dən artıq mənzilin (eyni təyinatlı daşınmaz əmlakın) olarsa, sosial yardım müraciətinə imtina ediləcək. Lakin, mənzili olmayan üçün mənzil hədiyyə edildikdə əvvəlki qaydaların əksinə olaraq ÜSY-ın verilməsi dayandırılmayacaq. Qeyd edək ki, Azərbaycan Prezidenti 16.03.2015-ci il tarixli "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli Qanununun tətbiqi haqqında sərəncamı ilə ÜSY-ın verilmə müddəti 1 ildən 2 ilə artırılıb.

Konsepsiyanın 7.3-cü bəndinə uyğun olaraq ötən dövr ərzində ehtiyac meyarı və yaşayış minimumu arasında tarazlığın təmin edilməsi mümkün olmayıb.

Diaqram 4: Ehtiyac meyarı və yaşayış minimumu üzrə göstəricilərin dinamikası




*Mənbə: prezident.az*

Baxmayaraq ki, 2012-ci illə müqayisədə 2017-cı il üçün ehtiyac meyarının həcmində 27.6% artırılıb, paralel olaraq yaşayış minimumunda baş verən 32.2%-lik artım və 2014-cü ildən

sonra dövlət gəlirlərinin azalmasına səbəb olan bir sıra daxili və xarici iqtisadi faktorlar artımın tempinə də təsirsiz ötüşməyib. Nəticədə, ehtiyac meyarının yaşayış minimumuna nisbəti 3 faiz bəndi geriləyərək 74.8% olub. Qeyd edək ki, qanunvericiliyə uyğun olaraq ünvanlı sosial yardımın hesablanması zamanı ehtiyac meyarı mühüm parametr hesab edilir və bu indikator üzrə artımlar sonda sosial yardımların həcmində öz əksini tapır. Başqa sözlə ehtiyac meyarı ilə yaşayış minimumu arasında fərqin artması aztəminatlı ailələrin sosial müdafiəsi tədbirlərinin (ÜSY) effektivliyini zəiflədir.

Aşağıdakı cədvəldə bir çox sosial göstəricilər üzrə dinamika göstərilib. Göründüyü kimi 2012-ci illə müqayisədə 2016-cı ildə sosial müavinat təyin edilmiş şəxslərin sayı 13,6%, bir nəfərə düşən orta aylıq müavinat səviyyəsi isə 14,4% artıb. Lakin, müqayisə dövründə milli valyutanın 55.2% devalvasiyası və istehlak qiymətləri indeksinin idxal infilyasiyası səbəbindən kəskin artımı artan məbləğin əlavə dəyər yaratmasında təsirlərini zəiflədib.

**Cədvəl 7: İşləməyən əhaliyə dövlət tərəfindən təyin olunmuş sosial müavinətlər**

| | **2012** | | **2014** | | **2016** | |
|---|---|---|---|---|---|---|
| | **Sosial müavinət təyin olunmuş şəxslərin sayı, nəfər** | **Bir nəfərə düşən orta aylıq məbləğ, manat** | **Sosial müavinət təyin olunmuş şəxslərin sayı, nəfər** | **Bir nəfərə düşən orta aylıq məbləğ, manat** | **Sosial müavinət təyin olunmuş şəxslərin sayı, nəfər** | **Bir nəfərə düşən orta aylıq məbləğ, manat** |
| **Sosial müavinətlər - cəmi** | **308831** | **44,32** | **316361** | **49,60** | **350898** | **50,73** |
| **o cümlədən:** | | | | | | |
| **yaşa görə** | 15969 | 55,00 | 13356 | 60,00 | 13833 | 60,00 |
| **əlilliyə görə** | 104043 | 44,17 | 118198 | 49,46 | 139041 | 49,50 |
| **ailə başçısını itirməyə görə ailə üzvlərinə** | 37995 | 49,50 | 38125 | 55,00 | 41286 | 55,00 |
| **16 yaşadək əlil uşaqlara** | x | x | x | x | x | x |
| **sağlamlıq imkanları məhdud olan 18 yaşadək uşaqlara[1)]** | 61693 | 60,50 | 62860 | 67,00 | 67081 | 67,00 |
| **dövlət qulluqçularına (ömürlük)** | 50 | 27,62 | 50 | 34,58 | 44 | 44,28 |
| **kommunal, nəqliyyat və digər xidmətlərə görə** | 57279 | 32,11 | 55516 | 36,11 | 54686 | 43,91 |
| **əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində zərərçəkənlərə aylıq kompensasiya** | 518 | 217,79 | 508 | 209,63 | 463 | 214,40 |
| **uşaqlı ailələrə (aylıq)-uşaqların sayı** | 21156 | 10,77 | 19455 | 12,50 | 18521 | 12,45 |
| **1 yaşadək uşağı olan ailələrə** | 8342 | 40,00 | 6775 | 45,00 | 5623 | 45,00 |
| **beşdən çox uşağı olan qadınlara** | … | … | … | … | 8984 | 30,00 |
| **valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına** | 747 | 45,00 | 553 | 50,00 | 467 | 50,00 |
| **Birdəfəlik müavinətlər - cəmi** | **122045** | **x** | **120839** | **x** | **113034** | **x** |
| **o cümlədən:** | | | | | | |
| **uşağın doğulmasına görə:** | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **ailələrə** | 105969 | X | 101657 | X | 93441 | x |
| **uşaqlara** | 111928 | 70,05 | 107869 | 81,17 | 100261 | 87,66 |
| **radiasiya qəzası nəticəsində zərər çəkərək əlil olmuş şəxslərə müalicə üçün (illik)** | 5054 | 161,65 | 4785 | 176,74 | 4609 | 195,00 |
| **dəfn üçün** | 1981 | 100,01 | 1980 | 112,09 | 2341 | 120,00 |
| **penitensiar müəssisələrində cəza çəkməkdən azad edilmiş şəxslərə** | 3082 | 334,00 | 6205 | 375,88 | 5823 | 419,77 |
| *Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2016* | | | | | | |

Qeyd edək ki, konsepsiyanın icrası müddətində 2013 və 2016-cı illər olmaqla əmək pensiyasının minimum məbləği 2 dəfə artırılıb. Beləliklə, 2012-ci illə müqayisədə 2016-cı ildə minimum pensiya məbləği 29,4% artaraq 110 manata çatdırılıb.

***Şəkil 3: Əmək pensiyasının minimum məbləği***




*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2016*

Minimum pensiya məbləği ilə yanaşı ötən 4 il ərzində orta aylıq pensiya məbləği də 22,3% artıb. Hazırda bu göstərici nominal ifadədə 177.6 manat səviyyəsindədir. Lakin, bu artım yaşayış minimumunda müşahidə edilən artımdan 3.6 faiz bəndi geri qalır.

**Cədvəl 8: Təyin olunmuş aylıq pensiyaların orta məbləği, manatla**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2012-ci illə müqayisədə dinamika, fazilə |
|---|---|---|---|---|---|---|
| **Təyin olunmuş aylıq pensiyaların orta məbləği - cəmi** | **145,1** | **152,0** | **170,5** | **173,4** | **177,6** | 22.3 |
| **yaşa görə** | 160,1 | 168,5 | 187,8 | 192,4 | 197,6 | 23.4 |
| **əlilliyə görə** | 126,1 | 129,8 | 148,4 | 149,4 | 150,3 | 19.2 |
| **ailə başçısını itirməyə görə** | 101,0 | 109,2 | 126,2 | 130,0 | 140,4 | 39.1 |

| |
|---|
| ***Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2016*** |

Ötən dövr ərzində ən yüksək artım ailə başçısının itirilməsinə görə təyin edilən pensiyalarda (39.1%), ən aşağı artım səviyyəsi isə əliliyə görə pensiyalarda(19.2%) qeydə alınıb. Yaşa görə pensiya məbləği isə 23.4% və yaxud 37.5 manat artırılaraq 197.6 manat səviyyəsinə çatdırılıb.

Ötən dövr ərzində ÜSY üzrə bəzi indikatorlar aşağıdakı cədvəldə təsvir edildiyi kimi dinamika nümayiş etdirib.

**Cədvəl 9:** ***Aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardım üzrə bəzi göstəricilər***

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2012-ci illə müqayisədə 2016-cı ildə |
|---|---|---|---|---|---|---|
| **Ünvanlı dövlət sosial yardımı təyin olunmuş ailələrin sayı, ədəd** | **120478** | **133613** | **143337** | **94794** | **105009** | **-15469** |
| **Ünvanlı dövlət sosial yardımı alan ailə üzvlərinin sayı, nəfər** | **541989** | **589922** | **625808** | **415198** | **451538** | **-90451** |
| **Bir nəfərə düşən orta aylıq ünvanlı dövlət sosial yardımın məbləği, manat** | **23,66** | **25,81** | **28,75** | **33,32** | **35,49** | **+11.83** |
| ***Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2016*** | | | | | | |

Beləki, 2012-ci illə müqayisədə 2016-cı ildə ünvanlı sosial yardım alan ailələrin sayında 12,8%, vətəndaşların sayında isə 16.7% azalma, bir nəfərə düşən orta aylıq ünvanlı dövlət sosial yardımın məbləğində isə 50% artım baş verib. Nəticədə adambaşına orta göstərici 23,66 manatda 35,49 manata yüksəlib. Araşdırmalar zamanı aydın olur ki, ÜSY alanların sayında azalama daha çox bu sahədə nöqsanların azalmasından qaynaqlanıb. Beləki, ÜSY-ın təyin edilmə qaydalarında dəyişikliyin edilməsi, yardım alanların siyahısının ictimailəşdirilməsi, eletron müracitətə əsaslanan təyinetmə metodunun tətbiqi haqsız yararlanma imkanlarını azalmasına səbəb olub.

**Cədvəl 10:** ***Azərbaycan Respublikası Prezidentinin təqaüdləri, ilin əvvəlinə***

| | 2012 | 2014 | 2016 |
|---|---|---|---|

| | Təqaüd təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat | Təqaüd təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat | Təqaüd təyin olunmuş şəxslərin sayı, nəfər | Bir nəfərə düşən orta aylıq məbləğ, manat |
|---|---|---|---|---|---|---|
| **Təqaüdlər - cəmi** | **34446** | **119,65** | **34981** | **134,47** | **54623** | **120,9** |
| ***onlardan:*** | | | | | | |
| **Şəhid ailələrinə** | 13628 | 151,33 | 13053 | 178,70 | 13187 | 168,73 |
| **Milli Qəhrəman adı verilmiş şəxslərə** | 186 | 589,03 | 182 | 986,26 | 176 | 988,07 |
| **1990-cı ilin 20 yanvar faciəsi zamanı şəhid olanların ailələrinə** | 135 | 255,74 | 125 | 268,88 | 116 | 268,10 |
| **1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar əlil olanlara** | 298 | 119,93 | 318 | 121,16 | 315 | 121,02 |
| **Müharibə əlillərinə** | 17903 | 76,42 | 18281 | 83,55 | 19114 | 127,16 |
| ***o cümlədən:*** | | | | | | |
| **Azərbaycan Respublikasının müdafiəsi zamanı əlil olanlara** | 11306 | 74,37 | 11912 | 82,62 | 12636 | 126,27 |
| **Hərbi xidmət vəzifələrini yerinə yetirərkən əlil olanlara** | 2337 | 74,57 | 2504 | 82,19 | 3121 | 126,51 |
| **Ümumi səbəblərdən I qrup əlilliyə görə** | … | … | … | … | **18525** | **60,00** |
| ***Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2016*** | | | | | | |

Qeyd edək ki, 2012-ci illə müqayisədə 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin təqaüdü alan vətəndaşların sayında 58,6%, şəhid ailələri üçün orta aylıq məbləğ 11,5%, Milli qəhrəmanlar üçün 67,7%, müharibə əlilləri üçün isə 66,4% artıb. Təqaüd alanların sayının artması Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2015-ci ildən etibarən I qurup əlliliyi olan şəxslərə aylıq 60 manat məbləğində təqaüdün təsis edilməsidir ki, nəticədə ölkə üzrə 18525 nəfər əlil Prezident Təqaüdü alanlar sırasına qoşulub.

Azərbaycan Respublikası Prezidentinin "Sağlamlıq imkanları məhdud uşaqlara və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlara sosial xidmət göstərilməsi sahəsində əlavə tədbirlər haqqında" 09 yanvar 2013-cü il tarixli Sərəncamının öhdəliklərinin yerinə yetirilməsi və Konsepsiyada nəzərdə tutulan hədəflərə nail olmaq məqsədi ilə 2013-cü ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 17 prioritet layihənin siyahısı təsdiq edilib. Müəyyənləşdirilmiş prioritetlərin icrası üçün Nazirliyin sifarişi ilə qeyri-hökumət təşkilatları müxtəlif layihələr həyata keçirib. Layihələrin icrası zamanı 2013-cü ildə 800 nəfər yetkinlik yaşına çatmayan uşağa sosial-psixoloji, hüquqi və reinteqrasiya xidmətləri göstərilib. 1400 nəfər sağlamlıq imkanları məhdud uşağın sosial reabilitasiya, aktiv terapiya, oyun terapiyası kimi müasir metodlardan istifadə etməklə cəmiyyətə adaptasiyasına köməklik edilib. Ağır həyat tərzi olan uşaqların və ailələrin sosial xidmətlərə əlçatanlığının artırılması, 3-12 yaş arası olan uşaqların

sosial kimsəsizliyinin profilaktikası məqsəd ilə günərzi mərkəzlər yaradılıb. 2014-cü ildə ƏƏSMN tərəfindən göstərilən sosial xidmətlərin monitorinqi və qiymətləndirilməsi mexanizminin təkmilləşdirilməsi məqsədi ilə beynəlxalq ekspertlərlə birlikdə minimum standartların hazırlanmasına başlanılıb.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2015-ci il 30 dekabr tarixli qərarı ilə "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair Əsasnamə" təsdiq edilib. Beləliklə əsasnamənin qüvvəyə minməsindən əvvəl əlilliyi müəyyən edilmiş və əlillik müddəti başa çatmamış birinci dərəcə əlilliyi olan şəxslərin əlilliyi müddətsiz, ikinci və üçüncü dərəcə əlilliyi olan şəxslərin əlillik müddəti 5 il, 18 yaşadək uşaqların sağlamlıq imkanlarının məhdudluğu isə 18 yaşından yuxarı olmamaqla 3 il müddətinə artırılıb. Məqsəd vətəndaş-məmur ünsiyyətinin azaldılması, sosial təminat sahəsində şəffaflığın artırılması və xidmətlərin əlçatanlığının və keyfiyyətinin artırılmasıdır.

2015-ci ildə Abşeron rayonunun Masazır qəsəbəsində 18 yaşının tamam olması səbəbindən dövlət uşaq müəssisələrini tərk edən kimsəsiz gənclər üçün 120 mənzilli "Məzun evi" tikilərək istifadəsinə verilib.

Avropa İttifaqının maliyyə yardımı ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Avstriya Respublikasının Vyana şəhəri İşçi Nümayəndəliyi arasında 01 iyun 2015 - 31 may 2017 tarixlərini əhatə edəcək "Sosial xidmət təminatının inkişafı" Tvinninq layihəsinin icrasına start verilib. Layihənin məqsədi ağır həyat şəraitində yaşamaq məcburiyyətində olanlar üçün sosial inklüziyasının yaradılması, bu istiqamətdə qanunvericiliyin və institutsional mexanizmlərin təkmilləşdirilməsi, xidmətlərin keyfiyyətinin artırılmasıdır.

"Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı"nın icrasının təmin edilməsi məqsədi ilə "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2014 - cü il üzrə Tədbirlər Planı" hazırlanaraq icra edilib.

2014-cü ildə yaradılan "Tibbi-Sosial Ekspertiza və Əlillərin Reabilitasiyası İnformasiya Sistemi"nin fəaliyyəti nəticəsində əlillik təyinatı prosesinin tam avtomatlaşdırılıb. Təkcə 2014-cü ildə ilkin əlillik təyin olunanların sayı əvvəlki illə müqayisədə 7660 nəfər, təkrar əlil hesab edilənlərin sayı 3940 nəfər azalıb. Eyni zamanda həmin dövrdə tam reabilitasiya olunanların sayında isə 1800 nəfər artım baş verib. Bundan başqa Azərbaycan Respublikası Prezidentinin "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında" 14 sentyabr 2015-ci il tarixli Fərmanı ilə ƏƏSMN-nin

mərkəzləşdirilmiş informasiya sistemində Tibbi Sosial Ekspertiza və Reabilitasiya Alt Sisteminin (TSERAS) yaradılıb. Beləliklə vətəndaşlar əlilliyin qiymətləndirilməsinə görə elektron qaydada müraciət, qiymətləndirmənin cavabının əldə edilməsi və s kimi imkanlar əldə ediblər.

Qeyd etmək lazımdır ki, konsepsiyanın icra edildiyi dövr ərzində əlillərin işlə təmin edilməsi istiqamətində ciddi dinamika müşahidə edilib. Beləki, 2013-cü illə müqayisədə 2015-ci ildə təxminən 17 dəfə cox əlil işlə təmin edilib.

**Şəkil 4: İşlə təmin edilən əlillərin sayı, illər üzrə**




*Mənbə: Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi*

Konsepsiyanın 7.3-cü bəndində icrası nəzərdə tutulan "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə dair Dövlət Proqramı (2014-2020-ci illər)" təsdiqlənməyib. Baxmayaraq ki, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aidiyatı dövlət qurumlarının rəyləri nəzərə alınaraq hazırlanmış "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə dair Dövlət Proqramı (2016-2020-ci illər)" təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncam layihəsi və layihənin maliyyə ekspertizasının həyata keçirilməsi haqqında tələb olunan müvafiq hesablamalar razılaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə göndərilib, hələlik dövlət proqramı təsdiqlənməyib. Proqramın təsdiqlənməsinin gecikməsi nəzərə alınaraq yeni hazırlanan layihə 2014-2020-ci illəri deyil 2016-2020-ci illəri əhatə etməklə konsepsiyada nəzərdə tutulduğundan 2 il az müddəti əhatə edir.

Qaçqın və məcburi köçkünlərin sosial-iqtisadi problemlərinin həlli məqsədi ilə 2013-cü il ərzində Azərbaycan Respublikasının Prezidenti tərəfindən 4 Fərman və Sərəncam, Nazirlər Kabineti tərəfindən 22 qərar və sərəncam, 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 1 Fərman, Nazirlər Kabineti tərəfindən 14 qərar və sərəncam, Milli Məclis tərəfindən 1 qanun, 2015-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 1 Fərman imzalanıb,

Azərbaycan Respublikasının Nazirlər Kabineti 10 qərar və sərəncam qəbul edilib. Bundan başqa “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramının (2015-2020) hazırlanıb. Lakin, dövlət proqramı hələlik təsdiq edilməyib.

2015-ci ilin sonunadək ölkə üzrə 49 min ailə və yaxud 243 min nəfər qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb ki, bu da Konsepsiyanın icrası dövründə orta hesabla ildə 6035 ailənin və yaxud cəmi 18103 ailənin mənzil şəratinin yaxşılaşdırılması deməkdir.

Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədi ilə 2013-cü ildə 2244 nəfər daimi, 4404 nəfər isə mövsümi işlə təmin edilib, 570 nəfərə işsiz statusu verilib, 615 nəfərə işsizlik müavinəti təyin edilib, 455 nəfər əmək bazarının tələbləri əuyğun peşə peşə kurslarına, 185 nəfər isə ictimai işlərə cəlb olunub. 2014-cü ildə 1787 nəfər məcburi köçkün daimi işlə, 1500 nəfər məvsümü işlə təmin olunub, 403 nəfərə işsiz statusu verilib, 513 nəfərə işsizlik müavinəti təyin edilib. Eyni zamanda 369 nəfər əmək bazarının tələbləri uyğun peşə kurslarına və 298 nəfər isə ictimai işlərə cəlb olunub, 8700 ailə ünvanlı sosial yardımın verilməsi müəyyənləşdirilib. Bununla yanaşı Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 317 məcburi köçkün sahibkarın investisiya layihəsi maliyyələşdirilib. Bu zaman 7,7 milyon manat məbləğində güzəştli kredit verilib ki, nəticədə 545 yeni iş yeri yaradılıb.

2015-ci ildə 1726 nəfər məcburi köçkün daimi, 400 nəfər mıvsimi işlə təmin olunub, 383 nəfərə işsiz statusu verilib, 422 nəfərə işsizlik müavinəti təyin edilib, 310 nəfər əmək bazarının müasir tələblərinə uyğun peşə kurslarına və 203 nəfər isə ictimai işlərə cəlb olunub. Eyni zamanda Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 286 məcburi köçkün sahibkaraın investisiya layihəsi maliyyələşdirilib. Bu məqsədlə 5 milyon manat güzəştli kredit verilib ki, nəticədə 356 yeni iş yeri yaradılıb.

Məşğulluğun artırılması işləri ilə paralel olaraq əvvəllər 2013-cü ildə 11 min, 2014-cü ildə 11 min və 2015-ci ildə isə 9 min özündən asılı olmayan iş yerlərini itirmiş məcburi köçkün və qaçqına orta aylıq əmək haqqının ödənişi həyata keçirilib.

Konsepsiyanın 7.3-cü bəndində Azərbaycan hökuməti və Beynəlxalq maliyyə qurumları o cümlədən BMT-nin xüsusi agentliyi olan BMT QAK-la və digər beynəlxalq humanitar yardım təşkilatları ilə birlikdə hazırlanması nəzərdə tutulan Böyük Repatriasiya (“Böyük Qayıdış”) Proqramı hələlik təsdiqlənməyib. Lakin, hazırda Nazirlər Kabinetinə təqdim edilmiş “Azərbaycan Respublikasında əhalinin sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı (2016-2025-

ci illər)"da  Böyük Repatriasiya Proqramının hazırlanması öhdəliyi Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə həvalə olunub. Bu dövlət proqramının təsdiqlənməsindən sonra qeyd olunan proqramın hazırlanmasına başlanacaq.

09 iyul 2013-cü il tarixində qüvvəyə minən Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi Əmək miqrasiyasının tənzimlənməsi sisteminin təkmilləşdirilməsində mühüm addımlardan biri hesab edilir.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 18 mart 2016-cı il tarixli fərmanı[39] ilə "Əhalinin sosial müdafiəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Dövlət Sosila Müdafiə Fondu Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyinə birləşdirilib. Beləliklə sosial sahədə idarəetmənin optimallaşdırılması tədbirlərinə başlanılıb.

Beləliklə ötən dövr ərzində əhalinin sosial müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində müəyyənləşdirilmiş hədəflərə nail olunması üçün Azərbaycan Respublikası Prezidenti tərəfindən 63 fərman və 109 sərəncam imzalanıb, Azərbaycan Respublikası Milli Məclisində 59 qanun və qanuna dəyişiklər edilib, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən isə 88 qərar qəbul edilib.

Ötən dövr ərzində bəzi sosial indikatorlar üzrə dinamika aşağıdakı diaqramlarda əks olunub.







---

[39] "Əhalinin sosial müdafiəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 18.03.2016
http://www.e-qanun.az/framework/32438


Orta aylıq əmək haqqı, manat və ABŞ dolları ilə müqayisəli
600
500
400
300
200
100
0
510,8
545
567
466,9
398,4
425,1
444,5
455,06
2012
2013
2014
2015


Adambaşına ÜDM, manat və ABŞ dolları ilə müqayisəli
10000
8000
6000
4000
2000
0
7594,3
7977,4
7990,8
5703,7
5966,1
6258,3
6268
5558,7
2012
2013
2014
2015

# Gender Bərabərliyi və ailənin inkişafı

Konsepsiyada “İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması” altbaşlığı altında qeyd olunan məsələlərlə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi davam etdirilir. Belə ki, 2016-cı ilə olan məlumata əsasən, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi “Azərbaycan Ailəsi” Strategiyası hazırlanır[40]. 2013-cü ildə Strategiyanın ilkin variantı müvafiq qurumlara təqdim olunmuşdur və hal-hazırda yekun variant üzərində işlər aparılır. Komitənin sədri Hicran Hüseynovanın sözlərinə görə, bu sənəddə ailə institutunun möhkəmləndirilməsi istiqamətində sosial, səhiyyə, tibbi, psixoloji, hüquqi və s. məsələləri əks etdirən tədbirlər yer alacaqdır.

Bundan əlavə, 2013-cü ilin 3 sentyabrında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən “Uşaq əməyinin istismarı ilə bağlı Birgə Tədbirlər Planı” imzalanıb.

Komitənin 15 aprel 2013 Kollegiyasının 26-7 qərarı ilə Ailə və Uşaqlara Dəstək Mərkəzləri haqqında Əsasnamə qəbul olunub. Qətnamə artıq mövcud olan Ailə və Uşaqlara dəstək Mərkəzinin fəaliyyətini müəyyən edən və tənzimləyən sənəddir.

2015-ci ilin əvvəlində Konsepsiyaya uyğun olaraq, 2015-2025-ci illər üçün “Milli Uşaq Strategiyası” hazırlanaraq müvafiq orqanlara təqdim edilib. Strategiyanın təsdiqlənməsindən sonra burada yer almış istiqamətlər üzrə hər biri beş olmaqla, Fəaliyyət Planı və Dövlət proqramlarının hazırlanması nəzərdə tutulur. Sənəddə uşaqların hüquqlarının erkən yaşda müdafiəsi, qanunvericiliklə bağlı bazanın təkmilləşdirilməsi, yerli səviyyədə uşaq müdafiə sistemində olan boşluqların doldurulması, yerlərdə uşaqların hüquqlarının müdafiəsi ilə məşğul olan yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların fəaliyyətlərinin gücləndirilməsi, uşaqların sağlamlığı və erkən uşaqlıq dövrü ilə bağlı müəyyən məsələlər yer alıb. Həmçinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və Analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov 2015-ci ildə bildirib ki, Azərbaycan Uşaq Məcəlləsi artıq hazırdır və qeyd olunan ilin sonuna qədər müvafiq qurumlara təqdim olunmalıdır[41]. Lakin Məcəllənin təqdim olunması və ya təsdiqlənməsi hələlik baş tutmayıb.

Qeyd edilməlidir ki, Konsepsiyanın müddəaları arasında yer alan “Ailə Psixoloqu” institutunun təsis olunmasına hələ başlanılmayıb, lakin Dövlət Komitəsinin sədrinin sözlərinə

---

[40] Report İnformasiya Agentliyi, “Komitə sədri: "Azərbaycan ailəsi Strategiyası” hazırlanır””, 20.09.2016. http://report.az/din/komite-sedri-azerbaycan-ailesi-strategiyasi-hazirlanir/

[41] APA İnformasiya Agentliyi, “Dövlət Komitəsi: Uşaq Məcəllısinni layihəsi hazırdır, 22 Aprel 2015, http://apa.az/sosial_xeberler/dovlet-komitesi-azerbaycan-usaq-mecellesinin-layihesi-hazirdir.html

görə, yaxın zamanlarda bununla əlaqədar tədbirlər tətbiq olunmağa başlanacaqdır. Həmçinin "Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planı" hazırlıq mərhələsindədir və tamamlandıqdan sonra, razılaşdırılması üçün aidiyyatlı qurumlara təqdim ediləcəkdir. [42]

Onu da qeyd etmək lazımdır ki, 6 oktyabr 2016-cı ildə Masallıda Qadın Məşğulluq Mərkəzinin açılışı olub. Mərkəzin əsas məqsədi qadınlar və gənclərin əmək bazarına inteqrasiyası və məşğulluq imkanlarının genişləndirilməsi kimi tədbirlərin yerinə yetirilməsidir. [43] Onu da qeyd etmək lazımdır ki, xüsusi ilə də regionlarda uşaq bağçalarının azlığı və yaxud bəzi hallarda ümumiyyətlə olmaması qadınların əmək bazarında aktiv iştirakçılığını zəiflədir.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, görülən işlərə baxmayaraq erkən nigah problemi xüsusi ilə də regionlarda hələ də davam etməkdədir. Beləki, ölkədə hər il təxminən 2400-2800 erkən nigah halı qeydiyyata alınır. Mütəxəssislər hesab edir ki, bu göstəricilər reallıqda daha yüksəkdir. Lakin, erkən nigah hallarının müəyyən bir qismi ən müxtəlif səbəblərdən (mentalitet, etinasızlıq, icma qapalılığı və s.)  qeydə alınmır.

Qadın və gənclərin məşğulluq problemlərinin həll edilməsi ilə bağlı 2013-cü il ərzində Şüvəlan UADM də "Ana-uşaq" və Ağdam UADM də "Gənc ana"  kursları fəaliyyətə başlamışdır. İsmayıllı UADM-in təşəbbüsü ilə İsmayıllı rayonunda Bakı Tikiş fabrikinin filialı aşılmış və mərkəzlərə işlə bağlı müraciət edən 45 nəfər qadın işlə təmin edilmişdir. Mərkəzlər tərəfindən "Reproduktiv sağlamlıq", "İnsan haqları", "Sağlam həyat tərzi", "Zərərli vərdişlər - Narkotik maddələr", "Şəxsi gigiyena", "Fərdi bacarıqların inkişafı", "Valideynlik bacarıqlarının inkişafı", "İnsan alverinə qarşı mübarizə", "Erkən nigahlar", "İnternetin uşaqlara mənfi təsiri" və s. mövzularında 125 təlim təşkil olunub. Saatlı mərkəzində yenidənqurmavə əsaslı təmir həyata keçirilmiş və mərkəz əhalinin istifadəsinə verilmişdir. İl ərzində Mərkəz fəaliyyətlərindən 6900 bəhrələnmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin mətbuata açıqlamalarından məlum olur ki, 2012-2016-cı illər ərzində qadın sahibkarların sayı 55% artaraq 73 469 nəfərdən 113 889 nəfərə yüksəlib. Nəticədə ümumi sahibkarlıq subyektləri arasında qadınlar 20% xüsusi çəkiyə malik olub[44]. Komitə sədrinin fikrincə dövlət sektorunda çalışanlar arasında qadınların sayı 29.2%-ə yüksəlib.

---

[42] Sputnik İnformasiya Agentliyi, "Azərbaycanda Ailə İnstitutu yaradılacaq", 28.09.2016
http://sputnik.az/azerbaijan/20160928/407199251/Azerbaycanda-aile-psixoloqu-institutu.html
[43] APA İnformasiya Agentliyi, "Masallıda Qadın Resurs Mərkəzinin açılışı olub", 06.10.2016
http://apa.az/iqtisadiyyat-xeberleri/sahibkarliq-fealiyyeti/masallida-qadin-resurs-merkezinin-acilisi-olub.html
[44] Mövqe.az,  "Vəzifədə olan qadınların statistikası açıqlandı", 06.02.2017
http://www.movqe.az/news/sosial/95957.html

Dövlət Statistika Komitəsinin məlumatına görə 2012-ci illə müqayisədə 2015-ci ildə qadın fəlsəfə doktorlarının sayı 27% artaraq 5614 nəfər və qadın elmlər doktorlarının sayı isə 14.3% artaraq 416 nəfər olub.

Hazırda gender məsələləri ilə bağlı bir sıra göstəricilərdə inkişaf müşahidə edilir. 2015-ci ildə Konsepsiyanın qəbul olunduğu 2012-ci il ilə müqayisədə Parlamentə seçilmiş qadınların sayı 2 nəfər artaraq, ümumi deputatların sayında qadın deputatların xüsusi çəkisi 15.4%-dən 16.8%-ə[125 yerdən 21 yeri qadınlara məxsus olub] qalxmışdır. Bundan başqa 2015-ci ildə 15 Parlament Komitəsi sədrindən 2-si qadın seçilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məlumatına görə Azərbaycanda Parlament sədrinin 3 müavinindən 1-i qadındır. Bundan başqa Komitədən bildirilir ki, 2012-ci illə müqayisədə 2015-ci ildə bələdiyyələrdə təmsil olunan qadınların sayı 8 faiz bəndi artaraq 35%-ə çatıb. Eyni zamanda 2015-ci ildə bələdiyyə sədirlərinin 28%-i qadınlardan ibarətdir ki, qeyd olunan son dinamikalar Konsepsiyanın icra olunduğu dövrdə 2014-cü ildə keçirilən bələdiyyə seçkilərində baş verib.

Qeyd edək ki, 2012-ci ildə yerli icra hakimmiyəti orqanlarının rəhbəri olaraq qadın olmadığı halda hazırda ölkə üzrə bir icra hakimiyyəti sədri qadındır. İcra hakiminin müavini olan qadınların sayı isə son beş ildə 31-dən 75-ə yüksəlib.

2015-ci ildə 2009-cu il ilə müqayisədə qadınlara qarşı zorakılıq hallarının sayı azalaraq 4696-dan 2248-ə düşüb. [45] Bu sahədə qanunvericilk bazasının təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun layihəsini hazırlayaraq Azərbaycan Respublikasının Milli Məclisinə və Nazirlər Kabinetinə təqdim edib[46]. Bundan başqa Komitə tərəfindən məişət zorakılığı halları ilə mübarizədə Milli Fəaliyyət Planı təsdiq edilmək üçün aidiyyatı dövlət qurumlarına göndərilib.

Həmçinin BMT İnkişaf Proqramı tərəfindən təqdim olunan gender göstəriciləri üzrə müəyyən inkişaf müşahidə olunub. Belə ki, 2015-ci ildə 2012-ci il ilə müqayisədə gender amili nəzərə alınmaqla, İnsan İnkişafı İndeksi 0,824-dən 0,840-a, qadın səlahiyyətlərinin artırılması

[45] Hicran Hüseynova: "Məişət zorakılığına məruz qalmış qadınlar üçün sığınacaq və yardım mərkəzləri açılmalıdır", 09.03.2016, http://apa.az/xeber-az/sosial_xeberler/hicran-huseynova-meiset-zorakiligina-meruz-qalmis-qadinlar-ucun-siginacaq-ve-yardim-merkezleri-acilmalidir-musahibe.html

[46] Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, "Qanunvericilik tədbirləri" http://scfwca.gov.az/wp-content/uploads/2014/05/qanunverciliktedbir.pdf , baxış tarixi: 09.08.2016

indeksi 0,576-dan 0,597-yə qədər artıb, lakin Gender bərabərsizliyi indeksi üzrə 0,336-dan 0,342-yə qədər kiçik də olsa, geriləmə müşahidə olunub.

# Gənclərin Potensialının və İdmanın İnkişafı

"Azərbaycan 2020: Gələcəyə Baxış" konsepsiyasının gənclərin potensialının idmanın inkişafı ilə bağlı qarşıya qoyulan əsas tələblərdən biri kimi "2015-2025-cü illəri əhatə edən Azərbaycan Gənclərinin İnkişaf Strategiyası" 2014-cü ildə hazırlanıb və 26 yanvar 2015-ci il tarixində Prezident Sərəncamı ilə təsdiqlənib.[47] Konsepsiyada Sənədin hazırlanması 2013-2023-cü illər üçün nəzərdə tutulmasına baxmayaraq, sonradan dəyişdirilərək, 2015-2025-ci illəri əhatə edən Strategiya hazırlanıb. Strategiyanın əsas prioritetləri: gənclərin sağlamlığının qorunması, ictimai-iqtisadi və mədəni inkişafına imkanlarını artırmaq, gənclərin, təlimi, təhsil və elmi fəaliyyət səviyyəsini artırmaq, həmçinin təşəbbüslərində onlara dəstək olmaqdır.

Konsepsiyada nəzərdə tutulan digər strateji sənəd olan "Azərbaycan Gəncliyi 2016-2020-ci illərdə" Dövlət Proqramı artıq hazırlanaraq, 2015-ci ilin sonlarına doğru müzakirə olunub. Müzakirədə Təhsil, Mədəniyyət və Turizm, Fövqəladə Hallar, Səhiyyə, Rabitə və Yüksək Texnologiyalar Nazirlikləri, həmçinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və s. qurumlar iştirak etmişlər. Lakin sənədin yekun variantının qəbulu hələ baş tutmayıb.

Konsepsiyada həm də 2012-ci ili də əhatə etməsi nəzərdə tutulan, lakin 2013-2020-ci illəri əhatə edəcək "Azərbaycan Respublikasında Bədən tərbiyəsi və İdmanın inkişafı üzrə Milli Strategiya" artıq hazırlanıb və müzakirə mərhələsindədir. Milli Strategiyanın mətni ilə Gənclər və İdman Nazirliyinin veb-səhifəsində tanış olmaq mümkündür.

Azərbaycan Gənclər Fondu və UNICEF təşkilatının dəstəyi ilə Beynəlxalq Avrasiya Mətbuat Fondu tərəfindən hazırlanmış və 2014-cü ildən bəri icra olunan "Azərbaycan Gənclərinə Dəstək Proqramı" Layihəsi[48] Konsepsiyada nəzərdə tutulan, ölkədə bədən tərbiyəsi və gənclərin sistemi inkişafını dəstəkləmək üçün regionlarda icra hakimiyyətləri yanında gənclərdən ibarət məşvərətçi şuraların yaradılması istiqamətində atılan addımlardan biridir. Layihənin giriş hissəsində qeyd olunduğu kimi, əsas məqsəd gənclərin idarəetmə və qərar vermə proseslərində səmərəli iştirakını təmin etmək üçün onların təlimləndirilməsi, bilik və bacarıqlarının inkişaf etdirilməsi, "2016-2020-ci illərdə Azərbaycan Gəncliyi" Dövlət Proqramının hazırlanmasında rayonda yaşayan gənclərin və yeniyetmələrin fikir və təkliflərini nəzərə almaq üçün onların iştirakı

---

[47] "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 26.01.2015
http://www.president.az/articles/14132

[48] Azərbaycan Gənclərinə Dəstək Proqramı Layihəsi, baxış tarixi: 01.10.2016
http://ayap.az/advocate/ayap.html

ilə Gənc konsultasiyaları keçirmək, həm də fiziki məhdudiyyətli gənclərin cəmiyyətə inteqrasiyasını reallaşdırmaqdır.

Konsepsiyada nəzərdə tutulan gənc ailələrə mənzil şərtlərinin yaxşılaşdırılması üçün bir sıra addımlar artıq atılıbdır. İlk növbədə, Gənclər və İdman Nazirliyi tərəfindən güzəştli ipoteka kreditlərinni verilməsi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinə və Mərkəzi Banka təkliflər göndərilib. Bundan əlavə, Mərkəzi Bank və Maliyyə Nazirliyi arasında gənc və azgəlirli ailələr üçün sosial ipoteka şərtlərinin təkmilləşdirilməsi, yəni, faiz dərəcələrinin aşağı salınması və maksimum məbləğin artırılması ilə bağlı müəyyən razılıq əldə olunub, lakin, yekun nəticələrin təsdiqi hələ həyata keçirilməyib.[49] Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2016-cı il tarixli fərmanı ilə vətəndaşların mənzil ehtiyaclarının ödənilməsi və Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılıb. Həmçinin 2017-ci dövlət büdcəsində Agentliyin yaradılması və mənzil inşası üçün müəyyən xərclərin ayrılması nəzərdə tutulub.

Beləliklə ötən dövr ərzində gənclərin potensialının və idmanın inkişafı istiqamətində Konsepsiyada müəyyənləşdirilmiş hədəflərə nail olmaq və bu sahdədə digər inkişaf trendlərini dəstəkləm məqsədi Azərbaycan Respublikası Prezidenti tərəfindən 17 sərəncam imzalanıb, Azərbaycan Respublikası Milli Məclisində 7 qanun və qanuna dəyişiklər edilib, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən isə 8 qərar qəbul edilib.

---

Axar.az İnformasiya Agentliyi, "Gənc Ailələrə: İpoteka şərtləri hazırdır", 30.07.2015 http://axar.az/news/59732

# Nəticə

2013-2016-cı illər ərzində "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması istiqamətində müəyyənləşdirilmiş hədəflərə nail olmaq və tədbirlərin icrasını təmin etmək məqsədi ilə ümumilikdə 667 qanun, fərman, sərəncam və qərar qəbul edilib. Beləki, bu dövr ərzində Azərbaycan Respublikası Prezidenti tərəfindən qeyd edilən istiqamətə birbaşa və dolayı təsirləri olan 99 fərman və 222 sərəncam imzalanıb. Azərbaycan Respublikasının Milli Məclisi 92 qanun qəbul edib, Azərbaycan Respublikası Nazirlər Kabineti isə 254-dən artıq qərar qəbul edib.




Bu sənədlərdən əsasən səhiyyə, təhsil və sosial müdafiə sahələrində yeniliklərin tətbiqi və inkişaf dinamikasının sürətləndirilməsinə hədəflənib.




Monitorinqin keçirilməsi zamanı müəyyənləşdirilib ki, insan kapitalının inkişafı istiqamətində qəbul edilən qərarların, qanun, fərman və sərəncamlarnın 319-u 47,8%-i sosial

müdafiə sisteminin təkmilləşdrilməsi, 200-ü isə müasir təhsil sisteminin formalalşdırılmasına hədəflənib.

Konsepsiyada nəzərdə tutulan strateji hədəflərə nail olunması məqsədi ilə 9 Dövlət Proqramının hazırlanması nəzərdə tutulub. 2016-cı ilin 8 ayı da daxil olmaqla ötən dövr ərzində Konsepsiyada konkret olaraq qeyd edilən və eyni zamanda nəzərdə tutulan fəaliyyətlərin icra edilməsi məqsədi ilə sonradan qərarlaşdırılan 5 Dövlət Proqramı təsdiq edilib. Hazırda 4 dövlət proqramı isə hazırlananraq aidiyyatı dövlət qurumları ilə razılaşdırılaraq təsdiqlənməsi məqsədi ilə Nazirlər Kabinetinə təqdim edilib.

Dövlət Proqramları ilə yanaşı Konsepsiyada 5 Strategiyanın hazırlanması nəzərdə tutulub ki, onlardan 2-si və əlavə olaraq "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilib. "Azərbaycan Ailəsi Strategiyası" və "Azərbaycan Respublikasında Bədən tərbiyəsi və İdmanın inkişafı üzrə Milli Strategiya" artıq hazırlanıb və təsdiqlənmək üçün aidiyyəti dövlət qurumlarına təqdim edilib. "Milli Uşaq Strategiyası" isə hazırlanır.

Konsepsiyanın icra edildiyi dövr ərzində İnsan Kapitalının İndeksi (İKİ) və İnsan İnkişafı İndexsi üzrə Azərbaycanın qlobal mövqeyində aşağıdakı dinamika qeydə alınıb.

**İnsan İnkişafı İndexsi, illər üzrə**




*Mənbə: http://hdr.undp.org/en/countries/profiles/AZE*

Qeyd etmək lazımdır ki, BMT-nin İnkişaf Proqramı tərəfindən hazırlanan son İnsan İnkişafı Hesabatı 2015-ci ildə olub ki, bu zaman da 2014-cü ilin məlumatları əsas götürülüb. Bu isə son iki il ərzində müşahidə edilən dəyişiklərin hesabatda əks edilmədiyini deməyə əsas verir.

**İnsan Kapitalı İndexsi, illər üzrə**




*Mənbə: Dünya Bankı*

Strateji hədəflərə nail olunması üzrə aparılan monitorinqlər zamanı aşağıdakı nəticələr qeydə alınıb:

- 2013-2015-ci illərdə Azərbaycan Respublikasının dövlət büdcəsinin "səhiyyə" bölümü üzrə xərcləri 14,4% artıb. Səhiyyə xərclərinin dövlət büdcəsinin ümumi xərclərində payı 0,5 faiz bəndi irəliləyərək 4%-ə, ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisi isə 0,2 faiz bəndi irəliləyərək 1,3%-ə yüksəlib;
- Səhiyyə sisteminin maliyyələşmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində konkret addımlar atılmayıb;
- İcbari tibbi sığortanın ölkə üzrə əhatəliliyi təmin edilməyib;
- 2012-ci illə müqayisədə 2015-ci ildə səhiyyə sahəsində çalışanlar üzrə orta aylıq əmək haqqı 16,6% artıb. Bunula belə, səhiyyə sahəsində orta aylıq əmək haqqının ölkə üzrə ümumi göstəriciyə nisbətən səviyyəsində geriləmə baş verib. Nəticədə, 2012-ci ildə ümumi göstəricinin 44%-i səviyyəsində olan orta aylıq əmək haqqı 2015-ci ildə 43,7%-dək geriləyib;
- Hemodializ mərkəzlərinin sayını artırmaq yolu ilə seanslar üçün növbə problemi həll edilib;
- 2012-2015-ci illər ərzində ölkədə 25 ədəd ambulatoriya-poliklinika yardım müəsisəsi istifadəyə verilib;
- 2014-cü ilin sonunda "Elektron Səhiyyə Mərkəzi" istifadəyə verilib;
- Ailə öncəsi tibbi müayinə icbari xarakterli tələb olaraq müəyyənləşdirilib;
- Azərbaycanda 2014-cü ildən başlayaraq allogen-qohum sümük iliyi transplantasiyası əməliyyatlarına başlanılıb;
- Ankoloji xəstəliklərdən ölüm hallarının sayı 2013-cü ildə hər 100 min nəfər üçün 68,7-dən 2014-cü ildə 64-ədək azalıb;

- Epidemik parotit kimi xəstəliklər 40% azalıb;
- Hesabat dövrü ərzində körpə və 5 yaşadək uşaq ölümü artıb;
- Dərman preparatlarının qiyməti Tarif Şurası tərəfindən tənzimlənən siyahıya daxil edilib;
- Konsepsiyanın icrası dövrünü əhatə edən 2013-2016-cı illər ərzində əhalinin sağlamlığı və səhiyyə sahəsində müəyyənləşdirilmiş hədəflərə nail olunması məqsədi ilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 18 fərman və 24 sərəncam imzalanıb, Azərbaycan Respublikası Milli Məclisində 21 qanun və qanuna dəyişiklər edilib, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən isə 53 qərar qəbul edilib;
- 2012-ci illə müqayisədə 2015-ci ildə müalicə məqsədi ilə ölkədən gedənlərin sayı 20% və yaxud 23.5 min nəfər artaraq 140 min olub. Bu məqsədlə Azərbaycana gələnlərin sayında isə əksinə 15.1% və yaxud 6.5 min azalma baş verib. Nəticədə müalicə məqsədi ilə ölkəyə gələn və ölkədən gedənlər arasında fərq 73.5 min nəfərdən 103.5 min nəfərə yüksəlib.
- Bundan başqa müqayisə dövründə əhalinin hər 10 000 nəfərinə düşən xəstəliklərin sayı 1838.4-dən 1914.2-yə yüksəlib. Başqa sözlə müvafiq göstərici üzrə 3 il ərzində 4.1% arttım baş verib.

- Təhsil xərcləri ÜDM - ə nisbəti 2012-ci illə (2,6 faiz ) müqayisədə 2015-ci ildə 0,3 faiz bəndi artaraq 2,9% təşkil edib;
- 2014-cü il 1yanvar tarixindən etibarən 10 il müddətinə körpələr evi, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evləri mənfəət vergisi və sadələşdirilmiş vergi ödəmələrindən azad edilib;
- 2012-ci illə müqayisədə 2015-ci ildə məktəbəqədər təhsil müəssisələrinə cəlb etdilən uşaqların sayı 8,8% artıb;
- 2012-ci illə müqayisədə uşaqların məktəbəqədər təhsil müəssisələri ilə əhatəliliyi 0.8 faiz bəndi azalaraq 14% olub;
- Maraqlı tərəflərin təhsildə idarəetməyə cəlb olunması məqsəd ilə 2015-2016-cı ildə ümumi təhsil müəssisələrində "Məktəb icmaları" layihəsinə start verilib;
- Maliyyə hesabatlılığını və şəffaflığı artırmaq məqsədi ilə Təhsil Nazirliyinin 14 dekabr 2015-ci il tarixli əmrinə əsasən, 15 regionda yaxın rayon və şəhərləri əhatə edən ərazi maliyyə hesablaşma məntəqələri yaradılıb;
- İnnovativ və informasiyalaşdırılmış təhsil metodlarının tətbiq edilməsi məqsədilə "SABAH" layihəsinin tətbiqinə başlanılıb;
- 2015-ci ilin sonuna 2051 məktəbdə İnternet və ya İntenetə çıxış təmin edilib ki, bu da bütün məktəblərin 44%-dir;

- “Elektron dərslik” sistemi yaradılıb;
- “Ali Təhsil müəssisələrində distant təhsilin təşkili Qaydaları”nın layihəsi hazırlanıb;
- Əhalinin hər 10000 nəfərinə ali təhsil müəssisələri tərəfindən buraxılan mütəxəssislərin sayı 38 nəfərdən 35 faizə azalıb;
- 2013-2016-cı illər ərzində müasir təhsil sisteminin formalaşdırılması üçün müəyyənləşdirilmiş hədəflərə nail olunması, təhsil sistemində islahat xarakterli dəyişiklərin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 18 fərman və 72 sərəncam imzalanıb, Azərbaycan Respublikası Milli Məclisində 5 qanun və qanuna dəyişiklər edilib, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən isə 105 qərar qəbul edilib;

- 2015-ci ilin sonuna ölkə üzrə bütün növ pensiyaların plastik kartlarla ödənişi təmin edilib;
- 2015-ci ildə minimum əmək haqqı orta aylıq əmək haqqının 22,5%-i həcmində olub ki, bu da 2012-ci illə müqayisədə 1 faiz bəndi azdır. Qeyd edək ki, Konsepsiya bu göstəricinin 60% həddinə yüksəldilməsini hədəf olaraq müəyyənləşdirib;
- 2012-ci illə müqayisədə 2015-ci ildə sanitar gigiyena normalarınnın pozulduğu şəraitdə işləyənlərin sayında 3%, ağır fiziki əməklə məşğul olanların sayı 14,2%, təhlükəsizlik tələblərinə cavab verməyən avadanlıqlarla işləyənlərin sayı isə 29,6% azalıb;
- 2012-ci illə müqayisədə əməyin mühafizəsinə çəkilən xərclərin həcmi 34,2% artıb;
- İstehsalatda bədbəxt hadisələr zamanı zərər çəkənlərin ümumi sayı 31,7% azalıb, hər yüz min nəfərə ölüm halları isə 5 nəfərdən 3 nəfərə enib;
- 2014-cü ilin iyul ayından etibarən əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi fəaliyyətə başlayıb;
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üçün VEMTAS-ın (Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi) yaradılıb;
- “Sosial Dəstək Fondu”nun yaradlması təsdiqlənməyib;
- 2014-cü ilin yanvar ayından etibarən beşdən çox uşağı olan qadınların uşaqlarının hər birinə görə aylıq 30 manat müavinət müəyyənləşdirilib;
- Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli Fərmanı ilə I qrup əlillərə aylıq 60 manat məbləğində Prezident təqaüdü təyin olunub;
- Çoxuşaqlı ailələrə verilən mənzillərin sayı 2012-ci illə müqayisədə 2015-ci ildə təxminən 13 dəfə artıb;
- Gənc ailələrə verilən mənzillərin sayında 2012-ci illə müqayisədə 81% və yaxud 4,6 dəfə artım müşahidə edilib;

- 2016-cı ildə əsas vəzifəsi həssas sosial qrupların evlə təmin edilməsi olan Mənzil İnşaat Dövlət Agentliyi (MİDA) yaradılıb;
- 2012-ci illə müqayisədə 2015-ci ildə hər bir ailə üzvünə verilən ünvanlı sosial yardımın (ÜSY) həcmi 27% artaraq 145,8 manata yüksəlib. Adambaşına məbləği isə müvafiq dövrdə 21,4% artaraq 31,8 manat olub;
- 2013-cü ildən etibarən ÜSY alanların siyahısının ictimailəşdirilməsinə başlanılıb;
- 2012-ci illə müqayisədə 2015-ci ildə ÜSY alan ailələrin sayı 21 min və yaxud 15,7% azalıb;
- ÜSY-ın verilmə müddəti 1 ildən 2 ilə artırılıb;
- Ehtiyac meyarının yaşayış minimumuna nisbəti 0,5 faiz geriləyərək 77,2% olub;
- 2012-ci illə müqayisədə 2016-cı ildə sosial müavinat təyin edilmiş şəxslərin sayı 13,6%, bir nəfərə müavinat səviyyəsi isə 14,4% artıb;
- 2012-ci illə müqayisədə 2016-cı ildə minimum pensiya ölçüsündə 29,4% artım olub;
- Təyin olunmuş orta aylıq pensiya məbləği 2012-ci illə müqayisədə 2016-cı ildə 22,3% artıb;
- 2012-ci illə müqayisədə 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin təqaüdü alan vətəndaşların sayı 58,6%, şəhid ailələri üçün orta aylıq məbləğ 11,5%, Milli qəhrəmanlar üçün 67,7%, müharibə əlilləri üçün isə 66,4% artıb;
- ƏƏSMN-nin mərkəzləşdirilmiş informasiya sistemində vətəndaşların əlilliyinin qiymətləndirilməsi üçün elektron qaydada müraciət imkanının yaradılması məqsədi ilə Tibbi Sosial Ekspertiza və Reabilitasiya Alt Sisteminin (TSERAS);
- Qaçqın və məcburi köçkünlərin sosial-iqtisadi problemlərinin həlli məqsədi ilə 2013-2015-ci illər ərzində Azərbaycan Respublikasının Prezidenti tərəfindən 6 Fərman və Sərəncam, Nazirlər Kabineti tərəfindən 46 qərar və sərəncam, Milli Məclisdə isə 1 qanun təsdiqlənib;
- Konsepsiyanın icrası dövründə orta hesabla ildə 6035 ailə olmaqla cəmi 18103 ailənin mənzil şərati yaxşılaşdırılıb;
- 2013-2015-ci illəri əhatə edən dövr ərzində əhalinin sosial müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində Azərbaycan Respublikası Prezidenti tərəfindən 63 fərman və 109 sərəncam imzalanıb, Azərbaycan Respublikası Milli Məclisində 59 qanun və qanuna dəyişiklər edilib, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən isə 88 qərar qəbul edilib;

- "Milli Uşaq Strategiyası" təsdiq edilməyib;
- "Ailə Psixoloqu" institutu təsis olunmayıb;

- Parlamentə seçilmiş qadınların sayı 2 nəfər artaraq, ümumi deputatların sayında qadın deputatların xüsusi çəkisi 15.4%-dən 16.8%-dək artıb, 2015-ci ildə 15 Parlament Komitəsi sədrindən 2-si qadın seçilib;
- 2012-ci illə müqayisədə 2015-ci ildə bələdiyyələrdə təmsil olunan qadınların sayı 8 faiz bəndi artaraq 35%-ə çatıb. 2015-ci ildə bələdiyyə sədrlərinin 28%-i qadınlardan ibarət olub;
- İcra hakiminin müavini olan qadınların sayı son beş ildə 31-dən 75-ə yüksəlib;
- 2015-ci ildə 2009-cu il ilə müqayisədə qadınlara qarşı zorakılıq hallarının sayı azalaraq, 4696-dan 2248-ə düşüb;
- BMT-nin İnkişaf Proqramı üzrə 2015-ci ildə 2012-ci il ilə müqayisədə gender amili nəzərə alınmaqla, İnsan İnkişafı İndeksi 0,824-dən 0,840-a, Qadın səlahiyyətlərinin artırılması İndeksi 0,576-dan 0,597-yə qədər artıb;
- Gender bərabərsizliyi indeksi üzrə 0,336-dan 0,342-yə qədər geriləmə müşahidə olunub;
- 2013-2020-ci illəri əhatə edəcək "Azərbaycan Respublikasında Bədən tərbiyəsi və İdmanın inkişafı üzrə Milli Strategiya" hazırlansa da təsdiqlənməyib;
- 2013-2015-ci illər ərzində gənclərin potensialının və idmanın inkişafı istiqamətində Azərbaycan Respublikası Prezidenti tərəfindən 17 sərəncam imzalanıb, Azərbaycan Respublikası Milli Məclisində 7 qanun və qanuna dəyişiklər təsdiqləyib, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən isə 8 qərar qəbul edilib.

## Tövsiyyələr

### 1. *Əhalinin sağlamlığı və səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələr*

Əhalinin sağlamlıq səviyyəsini artıracaq səhiyyə sisteminin yaradılmasında mühüm faktor bu sahənin maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi yolu ilə cəlb edilən maliyyənin həcminin artırılmasıdır. Beləliklə səhiyyə sisteminin maliyyələşdirilməsi mexanizmlərinin təkmilləşdirilməsi üçün aşağıdakı fəaliyyətlərin icra edilməsi məqsədəuyğundur:

1.1. *Müxtəlif maliyyələşdirmə modellərinin birlikdə tətbiq edilməsini mümkün edəcək hüquqi bazanın yaradılması* – səhiyyə müəssisələrinin müxtəlif maliyyə mənbələrinə çıxış imkanı yaranar;

1.2. *Səhiyyə xidmətlərinin maliyyələşmə mənbələrinin diversifikasiya edilməsi* – dövlət, özəl, bələdiyyə, icma və fərdi vəsaitlərin paralel formada maliyyələşdirmədə iştirakı səhiyyəyə cəlb edilən vəsaitlərin həcmini artra bilər;

1.3. *Dövlət səhiyyə müəssisələrinin büdcədən maliyyələşdirilməsində adambaşına maliyyələşdirmə prinsipinin tətbiq edilməsi* – ictimai vəsaitlərin səmərəliliyinin artırılması və rəqabət mühitinin inkişaf etdirilməsinə imkan yarada bilər;

1.4. *İcbari tibbi sığorta bazasının genişləndirilməsi məqsədi ilə qanunsuz əmək fəaliyyəti ilə mübarizənin gücləndirilməsi* – əhatəliliyin və səhiyyə xidmətlərinin əlçatanlığının artırılması, diskriminasiyaya yol açan halların aradan qaldırılmasına müsbət təsir edə bilər

1.5. *Əməkhaqqı sisteminin optimallaşdırılması* – fərdi inkişafın stimullaşdırılması, rəqabərli və keyfiyyətli xidmət mühitinin formalaşdırılması, korrupsiya və rüşvətxorluq hallarının azaldılmasına ciddi təsir edə bilər;

1.6. *İcbari tibbi sığortanın özəl səhiyyə müəssisələrində tətbiqi*– icbari tibbi sığorta müştərisinin özəl səhiyyə xidmətlərinə çıxış imkanı olmazsa bu zaman səhiyyə xidmətlərinin ölkə üzrə səmərəli təşkili, müəssisələrin faydalılığı təmin edilə bilməz. Bundan başqa vətəndaşın seçim imkanı məhdudlaşdırılmış olar.

1.7. *Səhiyyənin maliyyələşdirilməsinə yönəldilən ictimai vəsaitlərə (dövlət büdcəsindən ayırma, sosial sığorta fondundan xərcləmə, bələdiyyə və icma vəsaitləri hesabına maliyyələşdirmə, qrant və s.) ictimai nəzarət mexanizminin yaradılması* – bu yolla prosesin şəffaflığı, vəsaitlərdən səmərəli istifadə təmin edilə bilər.

## 2. *Müasir təhsil sisteminin formalaşdırılması*

İnsan kapitalının inkişafında mühüm əhəmiyyəti nəzərə alınaraq təhsil sisteminin müasir tələblərə uyğunluğunu artırmaq məqsədi ilə aşağıdakı faəliyyətlərin icra edilməsi tövsiyyə edilir:

2.1. *Maliyyə muxtariyyətinin verilməsi* – ölkə ərazisində ibtidai və orta təhsil məktəblərinə mərhələli şəkildə maliyyə muxtariyyətinin verilməsi məktəblərarası rəqabət mühitini dəstəkləməklə yanaşı maliyyələşmənin yeni keyfiyyətlərə uyğun aparılmasını təmin edə bilər. Maliyyə muxtariyyatı verilən məktəblərdə hesabatlılığın yeni standartları hazırlanmalı və şəffaflıq təmin edilməlidir.

2.2. *Büdcədən kənar maliyyələşdirmə mexanizmlərinin tətbiqi ( könüllülük prinsipinə əsaslanan yardım )*- vətəndaşların və yaxud yardım fondlarının məktəblərin maddi texniki bazasının yenilənməsində, işçi heyyətinin sosial rifahının gücləndirilməsində iştirakçılığı təhsilin keyfiyyətinin yüksəlməsinə və ictimai iştirakçılığın artırılmasına şərait yarada bilər. Bu

sahədə uğurlu nəticələr ödəmə və xərcləmə proseslərinin şəffaflığından asılıdır. Yardım vəsaitlərinin qəbul edilməsi paypointlər vasitəsi həyata keçirilməlidir. Bunun üçün məktəblər paypointlərlə təhciz edilməlidir. Xərcləmələrdə valideynlər şurasının iştirakçılığı təmin edilməlidir. Məktəb hər ayın sonunda aylıq hesabat hazırlamalı və hesabat Təhsil Nazirliyi və valideyinlər şurasına təqdim edilməlidir.

2.3. *Təmayülləşmənin dərinləşdirilməsi və ilk peşə, orta ixtisas və ali təhsilin əmək bazarının tələblərinə uyğunlaşdırılması* – qeyd edək ki, məşğulluğun keyfiyyəti, əməyin məhsuldarlığı və səviyyəsi baxımından məqsədli ixtisaslaşma effektivliyi artıra, bu isə öz növbəsində insan kapitalının təkmilləşdirilməsində müsbət rol oynaya bilər. Qeyd edək ki, əmək ehtiyyatlarının bacarıqlarının müasir tələblərə uyğunluğu ölkə iqtisadiyatının rəqabətliliyinin artıran əsas faktorlardan hesab edilməlidir.

2.4. *Biznes və təhsil əməkdaşlığının gücləndirilməsi, sifarişli kadrların hazırlanması* – ixtisas hazırlanmasının və tələbə qəbulunun biznes sifarişləri və tövsiyyələri əsasında tərtib edilməsi hazırlanan kadrlarının gələcək əmək fəaliyyəti baxımından ciddi təsirə malik ola bilər.

### 3. *Sosial müdafiə sisteminin təkmilləşdirilməsi*

3.1. *İnklüziv sosial siyasətin icrası* – sosial müdafiə sisteminin inklüzivliyi təmin edilərsə bu gəlir bərabərzisliyinin azaldılması, təhsil və səhiyyə xidmətlərinə çıxış imkanlarının artırılması, ictimai stresin azaldılmasına effektiv təsir edə bilər.

3.2. *İstehlak səbətinin strukturunun yenidən tərtib edilməsi ( kaloriliyin artırılması )* – istehlak səbətinin strukturunun inkişaf etmiş ölkələr üzrə orta göstəriciyə uyğunlaşdırılması real yaşayış minimumunun

müəyyənləşdirilməsinə şərait yaratmaqla yanaşı Azərbaycanda həyat standartlarının orta və uzunmüddətli dövrdə yüksəldilməsinə səbəb ola bilər.

3.3. *ÜSY-nin mərhələli şəkildə özününməşğulluq ilə əvəzlənməsi (reabilitasiya)* – ÜSY proqramın təsirlərinin davamlılığının təmin edilməsi, mənfi ictimai vərdişlərin qarşısının alınması, özünüməşğulluğa dəstək yolu ilə kiçik sahibkarlığın, ailə təsərüfatçılığının azaldılması və ailə gəlirlərinin daha yüksək səviyyəyə çatdırılması, həmçinin bu istiqamətdə təşəbbüskarlığın rolunun gücləndirilməsini təmin etmək olar. Lakin, heç bir halda ÜSY tam olaraq ləğv edilməməlidir. Çünki, bəzi hallarda ÜSY-nin əhatə etdiyi sosial quruplar reabilitasiya edilə bilmir ki, bu halda proqramın dayandırılması bu qurupların sosial müdafiəsini ciddi formada sarsıda bilər.

3.4. *Keyfiyyət yoxsulluğunun tətbiqi* – sosial qrupların real həyat səviyyəsinin müəyyənləşdirilməsi üçün mühüm əhəmiyyət daşıyır. Çünki, əhalinin sosial qruplar üzrə düzgün qruplaşdırıla bilməməsi sonda bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin effektivliyini azalda bilir.

# İstinadlar


Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Azərbaycan Respublikası Maliyyə Nazirliyi

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

Azərbaycan Respublikası Təhsil Nazirliyi

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

ARƏƏSMN yanında Dövlət Sosisal Müdafiə Fondu

Azərbaycan Respublikasının Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

Azərbaycan Respublikası Maliyyə Nazirliyi, "Azərbaycan Respublikasının 2016-cı ilin dövlət və icmal büdcələri üzrə" layihələrinin təqdimatı, baxış: 15.06.2016

http://www.maliyye.gov.az/sites/default/files/2016_budce_teqdimati.pdf

Azərbaycan Respublikası Prezidentinin Rəsmi İnternet Səhifəsi, "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"təsdiq edilməsi haqqında Sərəncam, 10.12.2013

http://www.president.az/articles/10459

Azərbaycan qəzeti, "Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı № 15", 06.02.2016

http://www.azerbaijan-news.az/index.php?mod=3&id=89629

Azərbaycan Respublikası Prezidentinin Rəsmi İnternet Səhifəsi, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu", 16.12.2014

http://president.az/articles/13697

Azərbaycan Respublikası Prezidentinin Rəsmi İnternet Səhifəsi, “Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 10.02.2015

http://president.az/mobile/articles/14296

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, “Respublika Talassemiya Mərkəzində “Dəyirmi masa” keçirilib”, 24.02.2016

http://sehiyye.gov.az/main/1221-respublika-talassemiya-mrkzind-dyirmi-masa-keirilib.html

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, “Respublika Talassemiya Mərkəzində “Dəyirmi masa” keçirilib”, 24.02.2016

http://sehiyye.gov.az/main/1221-respublika-talassemiya-mrkzind-dyirmi-masa-keirilib.html

Trend xəbər agentliyi, “2016-2020-ci illər üçün İİV/QİÇS-lə mübarizə üzrə Tədbirlər Proqramı təsdiq edildi”, 20.02.2016

http://az.trend.az/azerbaijan/society/2497085.html

“Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 23.12.2015

http://www.e-qanun.az/framework/31727

Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi,“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”, 24.10.2014

http://www.president.az/articles/9779

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 19.01.2016

http://www.e-qanun.az/framework/29145

Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi, “Elm haqqında Azərbaycan Respublikasının Qanunu”, 09.08.2016

http://www.president.az/articles/20785

European Commission, “Education and Training, Monitor 2015, Country analysis”, baxış tarixi: 06.09.2016

http://www.moec.gov.cy/aethee/chrisimo_yliko/education_training_2015/education_training_monitor_2015_vol2.pdf

“Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 220 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında”, 06.05.2015

http://www.e-qanun.az/framework/29963

Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası PrezidentininFərmanı, 20.04.2016

http://www.e-qanun.az/framework/32601

Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi , “Körpələr evlərinə, körpələr evi-uşaq bağçalarına, uşaq bağçalarına, xüsusi uşaq bağçalarına və uşaq evlərinə müddətli vergi güzəştlərinin verilməsi haqqında Azərbaycan Respublikasının Qanunu”, 04.02.2014

http://www.president.az/articles/10945

Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi, “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı”, 21.12.2015

http://www.president.az/articles/17211

Azərbaycan Respublikası Təhsil Nazirliyi, “Məktəbəqədər təhsilə diqqətin artırılması ölkənin inkişafını şərtləndirən amildir”, 14.03.2014

http://edu.gov.az/az/page/431/8256

Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi, “Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı”, 24.07.2014

http://www.president.az/articles/1244

Azərbaycan Respublikası Təhsil Nazirliyi, “Valideyn Nəzarət Sistemi” yenilənib,

http://edu.gov.az/az/page/9/12143

İsmayıllı Xəbərləri, “İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci”, 13.07.2016

http://ismayilli-xeberleri.info/930-304smay305l1305-d246vl601t-humanitar-v601-texnologiya-kolleci.html

İctinfo, “Azərbaycanda ilk differensial əmək haqqı sistemi”, 07.10.2016

http://ictinfo.az/az%C9%99rbaycanda-ilk-differensial-%C9%99m%C9%99k-haqqi-sistemi/

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Föndu, Vaqif Bayramov, 12.09.2013

http://www.sspf.gov.az/view.php?lang=az&menu=358&id=1289

Vergi Jurnalı, “ Azərbaycan MDB-də avtomatlaşdırılmış pensiya sisteminə keçmiş ilk ölkədir”, Anar İsayev

http://vergiler.az/art-view/1919/ , baxış tarixi: 13.07.2016

Səs İnformasiya Agentliyi, “Bu gündən “Pensiya+” xidməti istifadəyə verildi”

http://sia.az/az/news/social/390102-bu-gunden-pensiya-xidmeti-istifadeye-verildi

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Föndu, “Dövlət Sosial Müdafiə Fondunda 2015-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib”, 19.02.2016

http://www.sspf.gov.az/view.php?lang=az&menu=400&id=2210

Xalq Qəzeti, “Əhalinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir”, 08.08.2015

http://www.xalqqazeti.com/az/news/social/60702

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Föndu, "Dövlət Sosial Müdafiə Fondunda 2015-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib", 19.02.2016

http://www.sspf.gov.az/view.php?lang=az&menu=400&id=2210

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Föndu, "Dövlət Sosial Müdafiə Fondunda 2015-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib", 19.02.2016

http://www.sspf.gov.az/view.php?lang=az&menu=400&id=2210

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Föndu, 04.03.2016

http://www.sspf.gov.az/view.php?lang=az&menu=400&id=2248

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, "Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı (2014-2025-ci illər)", 01.06.2014

http://www.mlspp.gov.az/az/pages/373

Azərbaycan qəzeti, "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində BMT-nin Əhali Fondunun regional direktoru ilə görüş olub", 07 İyun 2016

http://www.azerbaijan-news.az/index.php?mod=3&id=98514

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2015-ci il üzrə fəaliyyəti haqqında hesabat"

http://www.mlspp.gov.az/Senedler-2016/2015%20HESABAT-%C6%8F%C6%8FSMN.pdf, 09.08.2016

"Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 25.02.2015

http://www.e-qanun.az/framework/29391

Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi,

http://www.refugees-idps-committee.gov.az/az/pages/26.html , 13.08.2016

Əhalinin sosial müdafiəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 18.03.2016

http://www.e-qanun.az/framework/32438

"2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 26.01.2015,

http://www.president.az/articles/14132

APA İnformasiya Agentliyi, "Dövlət Komitəsi: Uşaq Məcəlləsinni layihəsi hazırdır, 22 Aprel 2015,

http://apa.az/sosial_xeberler/dovlet-komitesi-azerbaycan-usaq-mecellesinin-layihesi-hazirdir.html

APA İnformasiya Agentliyi, "Masallıda Qadın Resurs Mərkəzinin açılışı olub", 06.10.2016

http://apa.az/iqtisadiyyat-xeberleri/sahibkarliq-fealiyyeti/masallida-qadin-resurs-merkezinin-acilisi-olub.html

Axar.az İnformasiya Agentliyi, "Gənc Ailələrə: İpoteka şərtləri hazırdır", 30.07.2015

http://axar.az/news/59732

Azərbaycan Gənclərinə Dəstək Proqramı Layihəsi, baxış tarixi: 01.10.2016

http://ayap.az/advocate/ayap.html

Hicran Hüseynova: "Məişət zorakılığına məruz qalmış qadınlar üçün sığınacaq və yardım mərkəzləri açılmalıdır", 09.03.2016

http://apa.az/xeber-az/sosial_xeberler/hicran-huseynova-meiset-zorakiligina-meruz-qalmis-qadinlar-ucun-siginacaq-ve-yardim-merkezleri-acilmalidir-musahibe.html

Report İnformasiya Agentliyi, "Komitə sədri: "Azərbaycan ailəsi Strategiyası" hazırlanır"", 20.09.2016

http://report.az/din/komite-sedri-azerbaycan-ailesi-strategiyasi-hazirlanir/

Sputnik İnformasiya Agentliyi, “Azərbaycanda Ailə İnstitutu yaradılacaq”, 28.09.2016

http://sputnik.az/azerbaijan/20160928/407199251/Azerbaycanda-aile-psixoloqu-institutu.html